RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 78 (8671) CÜMƏ, 16 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev postsovet məkanının ən savadlı, ən mədəni Prezidentidir

## Bunu rəsmən bəyan edən Aleksandr Lukaşenko Azərbaycanın böyük Zəfərini alqışladı

Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi müstəqil xarici siyasət həyata keçirən Azərbaycan dünyanın aparıcı güc mərkəzləri ilə qarşılıqlı maraqlara əsaslanan sıx tərəfdaşlıq münasibətləri qurub.

Azərbaycanın həm də dünyanın ayrı-ayrı qütblərində yerləşən dövlətlərlə əlaqələri genişlənməkdədir. Rəsmi Bakı diplomatik əlaqələrdən başlamış, dərin siyasi, iqtisadi-ticari sahələrə, humanitar-mədəni münasibətlərə qədər bir çox dövlətlə əməkdaşlıq edir. Sıx dostluq və qardaşlıq münasibətlərinə gəldikdə isə, bir neçə dövlət yada düşür ki, onlardan da biri Belarusdur.

### Liderlərin dostluğuna söykənən münasibətlər

İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə yaradılsa da, münasibətlərin yeni inkişaf mərhələsinə 2006-cı ildən başlanılıb. Həmin il hər iki ölkədə səfirliklər açılıb.

Münasibətlərin dostluq səviyyəsinə yüksəlməsinin səbəbi hər iki ölkənin prezidentləri - İlham Əliyevlə Aleksandr Lukaşenko arasında olan səmimi dostluqdur. Bunu dövlət başçılarının qarşılıqlı rəsmi və işgüzar səfərləri, beynəlxalq təşkilatların iclaslarında, forumlarda təkbətək görüşləri təsdiqləyir.

Aleksandr Lukaşenkonun aprelin 13-14-də ölkəmizə işgüzar səfəri də mövcud münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Bu, Belarus Prezidentinin Azərbaycana 5-ci səfəri idi. Bunadək A.Lukaşenko ölkəmizdə 4 dəfə (2007, 2010, 2013 və 2016-cı illər) rəsmi, 1 dəfə (2015-ci il) işgüzar səfərdə olmuşdu.

Beynəlxalq təşkilatların, eləcə də keçmiş postsovet ölkələrində keçirilən MDB Dövlət Başçıları Şurasının iclaslarını nəzərə almadan, 2006-cı ildən bugünə qədər, yəni son 15 ildə liderlərin təkcə qarşılıqlı səfərləri zamanı 15 dəfə görüşdüklərini söyləyə bilərik.

Bu görüşlər istər beynəlxalq səviyyədə, istərsə də ikitərəfli münasibətlərdə əməkdaşlığı getdikcə daha da möhkəmləndirib. Hər iki dövlət beynəlxalq təşkilatlarda, ən çətin məqamlarda belə bir-birinə dəstək olub.

Liderlərin budəfəki təkbətək görüşü zamanı İlham Əliyev bu məsələyə toxunaraq dedi ki, hər iki ölkə iştirak etdiyi beynəlxalq strukturlarda bundan sonra da bir-birini dəstəkləməkdə davam edəcək. Yəni, bu münasibətlər hər hansı problemlərdən tamamilə uzaqdır: “Bizim müntəzəm əlaqələrimiz, sadəcə, görülmüş işlərə yekun vurmağa, növbəti addımları ölçüb-biçməyə və iki dost, iki tərəfdaş kimi irəliləməyə imkan verir”.

*Ardı 4-cü səh.*

## Cibuti Respublikasının Prezidenti zati-aliləri cənab İsmail Ömər Gellehə

Hörmətli cənab Prezident!

Cibuti Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Cibutini ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Sizin Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfərinizi, Sizinlə görüşümüzü xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, Azərbaycan-Cibuti əlaqələrinin daha da genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təsisatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Cibuti xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2021-ci il*

## Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illiyi münasibətilə auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Palatanın aşağıdakı üzvləri “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Abbasov Çingiz Abbas oğlu
Axundov Nazim Zakir oğlu
Bayramov Vəli Oruc oğlu
Əhmədov Hafiz Məhəmməd oğlu
Əliyev Elçin Məmməd Əli oğlu
Əliyev Razı Təhməz oğlu
Hüseynov Zamin Ramazan oğlu
İbrahimov Elnur Elxan oğlu
İsmayılov Nazim Məmməd oğlu
Qurbanov Abbasəli Şükür oğlu
Musayev Adıgözəl Maqsud oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2021-ci il*

## Zəngəzur dəhlizi artıq reallığa çevrilir

### Beynəlxalq birlik rəsmi Bakının Qarabağı tam nəzarətə götürməsini ədalətin zəfəri kimi qarşılayır

Beynəlxalq hüququn, ayrı-ayrı təşkilatların dövlətlərarası münaqişələrin, müharibələrin aradan qaldırılmasındakı rolu barədə çox danışılır. Amma nədənsə 30 ilə yaxın bir müddət ərzində nə beynəlxalq hüquq, nə də təşkilatlar Azərbaycan torpaqlarını işğaldan xilas etmədilər. Bu baxımdan İkinci Qarabağ müharibəsində Azərbaycan güc yolu ilə beynəlxalq hüququ təmin etməyin nümunəsini ortaya qoydu. Cəmi 44 gün ərzində işğal olunmuş torpaqlarımız azad edildi və erməni təəssübkeşlərinin hay-həşirlərinə baxmayaraq, beynəlxalq birlik respublikamızın qələbəsini ehtiramla qarşıladı.

### Azərbaycan müstəqil şəkildə Dağlıq Qarabağ probleminə son qoydu

Düzdür, münaqişələrin yoluna qoyulması ilə bağlı təzyiq və təsir mexanizmlərinin işə salınmasına dair beynəlxalq təcrübə mövcuddur. Bununla bağlı elə son onilliklərdə baş vermiş hadisələri, yaradılmış koalisiyaları, beynəlxalq sülhyaratma missiyalarını, iqtisadi sanksiyaların tətbiq edilməsini misal göstərmək olar. Bu təsir mexanizmlərinin hansı nəticəni verməsi başqa mövzu olsa da, görünən odur ki, beynəlxalq təşkilatlar lazım gəldikdə hansısa problemin həlli üçün birgə hərbi və ya iqtisadi güc nümayiş etdirə bilirlər.

Dağlıq Qarabağ probleminə gəldikdə isə, Ermənistana qarşı heç bir siyasi təzyiq olmadı. Azərbaycanın torpaqları işğal olunduğu, azərbaycanlıların məcburi köçkünə çevrildikləri dünyanın gözü qarşısında baş versə də, Ermənistan heç qınanmadı da. Ortada BMT qətnamələri olsa da, beynəlxalq ictimaiyyət onların icrasının vacibliyini təkid etməyərək yalnız deklorativ sözlərlə kifayətləndi. Beynəlxalq təşkilatlar, vasitəçilər Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində həyata keçirdiyi vandallığa, talanlara, tarixi abidələrimizin məhv edilməsinə və ya erməniləşdirilməsinə də göz yumdular.

Ötən il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı isə Azərbaycanın səbr kasasını daşdıran hadisə oldu. Başlanan əks-hücum əməliyyatları torpaqlarımızın işğaldan azad olunması ilə nəticələndi və beləliklə, Azərbaycan vasitəçilərin etmək istəmədiklərini, beynəlxalq hüququn tələblərini güc yolu ilə təmin etdi. “Dağlıq Qarabağ münaqişəsi nizamlanıb. Azərbaycan onu müstəqil surətdə nizamlayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirib. Bu qətnamələr 27 il ərzində kağız üzərində qalıb və təəssüf ki, onların implementasiyası mexanizmi işə salınmayıb. Minsk qrupunun həmsədr ölkələrinin erməni tərəfinə müraciətlə işğala son qoymaq çağırışları da yerinə yetirilməyib. Həmsədrlərin status-kvonun qəbuledilməzliyi barədə bəyanatları erməni tərəfindən eşidilməyib” deyə Prezident İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə işgüzar səfəri zamanı mətbuata bəyanatında bildirib.

*Ardı 4-cü səh.*

## Abşeronun günəşi həm də elektrik enerjisi verəcək

### Bərpaolunan yeni enerji stansiyasının tikintisi ilə bağlı sənədlər artıq imzalanmışdır

Bütün dünyada bərpaolunan enerjidən istifadə getdikcə özünə daha geniş yer alır. Azərbaycanda da bu məsələyə xüsusi diqqət yetirilməsi təsadüfi deyil. Çünki bərpaolunan enerji sahəsinin inkişafı üçün ölkəmizdə əlverişli şərait mövcuddur.

Məlumdur ki, bu növ enerjinin yaradılmasının əsas mənbəyi günəş və küləkdir. Azərbaycan isə dünyada məhz günəşli ölkə kimi tanınır. Coşqun Xəzərin sahilində və dağlar qoynunda yerləşən ərazilərimizdə külək enerjisindən istifadə üçün də geniş imkan var. Bu səbəblərdən Azərbaycanın bir sıra bölgələrində bərpaolunan enerji stansiyalarının tikilməsi gündəmə gəlir.

Bu il aprelin 2-də Prezident İlham Əliyev “Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında” sərəncam imzalayıb. Bu, Azərbaycanı “yaşıl enerji” məkanına çevirmək istiqamətində atılan növbəti mühüm addımdır. Ona görə ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ən ümdə istiqamətlərdən biri kimi enerjidən istifadənin genişləndirilməsi müəyyən edilib.

*Ardı 5-ci səh.*

### Azərbaycan Prezidentinin son bəyanatı Ermənistanda böyük şok və xof yaradıb:



## “Bir də görəcəyik ki, İlham Əliyev Yerevanda hərbi parad keçirir”

Prezident İlham Əliyevin ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda suallara verdiyi cavablar Ermənistanda narahatlıq və həyəcanı daha da artırıb. Söhbət Prezident İlham Əliyevin azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarına qayıdacaqları haqda fikirlərindən gedir: “...Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm”.

### “Ermənistan rəhbərliyi düz danışmağı Əliyevdən öyrənməlidir”

Prezident İlham Əliyevin bu fikirləri Ermənistanda yeni ajiotaja səbəb olub, böyük şok və xof yaradıb. Ermənilər qeyd edirlər ki, Prezident İlham Əliyev daim verdiyi vədləri yerinə yetirib və bu dəfə də istisna olmayacaq.

*Ardı 4-cü səh.*

## Peyvəndlərin effektiv olduğu təsdiqini tapır

Hazırda dünyanın əksər ölkələrində koronavirus infeksiyasına qarşı vaksinasiya prosesi davam edir. Tibb alimlərinin də vaksinasiya ilə bağlı yekdilliklə gəldiyi nəticə odur ki, yalnız peyvənd sayəsində əldə olunan kütləvi immunitet insanları bu təhlükəli virusdan qoruya bilər.

COVID-ə qarşı hazırlanan peyvəndlər barədə aparılan araşdırmaların nəticələri müsbət çıxıb. Artıq ABŞ-da könüllülərin iştirakı ilə “Oxford-AstraZeneca” peyvəndinin sınaqdan keçirilməsinin çoxdan gözlənilən nəticələri təsdiqlənib. Peyvəndin sınaqlarında əsasən ABŞ-da və eləcə də Çili və Peruda 32 mindən çox könüllü iştirak edib. “AstraZeneca” peyvəndi simptomatik COVID xəstəliyini dayandırmaqda 79 faiz və insanların ağır xəstələnməsinin qarşısını almaqda 100 faiz effektiv olduğunu göstərib. Eyni zamanda bu peyvəndin tromboza səbəb olması aşkar edilməyib. “AstraZeneca” ilə bağlı hərtərəfli araşdırma aparmış Avropa Dərman Agentliyi (EMA) insanların bu peyvəndin təhlükəsizliyinə və faydasına əmin ola biləcəklərini bildirib.

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 697, № 12, maddə 1085; 2010, № 5, maddə 382; 2016, № 6, maddə 996; 2017, № 2, maddə 163, № 5, maddə 731, № 11, maddə 1981) ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "I siyahı. Narkotik vasitələr" fəslində:

1.1. 2-ci maddədə "duzlar" sözü "duzları" sözü ilə əvəz edilsin;

1.2. 7-ci maddədə "qətranı" sözü "qatranı" sözü ilə əvəz edilsin;

1.3. 9-cu maddədə "Xaş-xaş" sözü "Xaşxaş" sözü ilə əvəz edilsin;

1.4. 12-ci maddədə "Marixuana-Kannabis" sözləri "Marixuana (kannabis)" sözləri ilə əvəz edilsin;

1.5. 16-cı maddədə "Omnopon-pantopon" sözləri "Papaveratum (pantapon, omnopon)" sözləri ilə əvəz edilsin;

1.6. 22-ci, 23-cü, 25-ci və 29-cu maddələr ləğv edilsin;

1.7. aşağıdakı məzmunda 33-187-ci maddələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 33. | O-(adamantan-1-il)-1-pentil-1H-indazol-3-karboksilat | 0,05 | 0,25 |
| 34. | N-(2-adamantil)-1-[(tetrahidropiran-4-il)metil]indazol-3-karboksamid (Adamantyl-THPINACA) | 0,05 | 0,25 |
| 35. | Akriloilfentanil (akrilfentanil) | 0,0002 | 0,001 |
| 36. | Alfameprodin | 0,5 | 2,5 |
| 37. | Alfametadol | 0,5 | 2,5 |
| 38. | Alfa-metilfentanil | 0,0002 | 0,001 |
| 39. | Alfa-metiltiofentanil | 0,0002 | 0,001 |
| 40. | Alfaprodin | 0,5 | 2,5 |
| 41. | Alfasetilmetadol | 0,5 | 2,5 |
| 42. | Alfentanil | 0,002 | 0,15 |
| 43. | Allilprodin | 0,5 | 2,5 |
| 44. | Anileridin | 0,01 | 0,05 |
| 45. | Asetil-alfa-metilfentanil | 0,0002 | 0,001 |
| 46. | Asetilmetadol | 0,5 | 2,5 |
| 47. | Asetorfin | 0,0001 | 0,0005 |
| 48. | Benosiklidin | 0,02 | 0,1 |
| 49. | N-(1-benzilpiperidin-4-il)-N-fenilpropanamid (benzilfentanil) | 0,0002 | 0,001 |
| 50. | N-[1-(2H-1,3-benzodioksol-5-il)-propan-2-il]-Nmetilhidroksilamin (FLEA) | 0,5 | 2,5 |
| 51. | 1-(Benzofuran-5-il)-N-(2-metoksibenzil)propan-2-amin (5-APB-NBOMe) | 0,2 | 1 |
| 52. | 1-(Benzofuran-2-il)-propan-2-amin(2-APB) və törəmələri | 0,6 | 3 |
| 53. | Bezitramid | 0,1 | 0,5 |
| 54. | Benzetidin | 0,05 | 0,25 |
| 55. | Benzilmorfin | 0,5 | 2,5 |
| 56. | Beta-hidroksi-3-metilfentanil | 0,002 | 0,01 |
| 57. | Beta-hidroksifentanil | 0,002 | 0,01 |
| 58. | Betameprodin | 0,5 | 2,5 |
| 59. | Betametadol | 0,5 | 2,5 |
| 60. | Betaprodin | 0,5 | 2,5 |
| 61. | Betasetilmetadol | 0,5 | 2,5 |
| 62. | Butirfentanil | 0,0002 | 0,001 |
| 63. | Dezomorfin | 0,05 | 0,25 |
| 64. | Dekstromoramid | 0,01 | 0,05 |
| 65. | Dekstropropoksifen | 0,6 | 3 |
| 66. | Diampromid | 0,5 | 2,5 |
| 67. | 4-(Di(benzo[1,3]dioksol-5-il)(hidroksi)metil)piperidin-1-karbon turşusu | 0,05 | 0,25 |
| 68. | Difenil(pirrolidin-2-il)metanol (D2PM) | 0,05 | 0,25 |
| 69. | 2-(Difenilmetil)-1-metilpiperidin-3-ol(SCH-5472) | 0,05 | 0,25 |
| 70. | Dihidroetorfin | 0,0001 | 0,0005 |
| 71. | Dihidrokodein | 0,5 | 2,5 |
| 72. | Dihidromorfin | 0,5 | 2,5 |
| 73. | Dimenoksadol | 0,5 | 2,5 |
| 74. | Dimefeptanol | 0,5 | 2,5 |
| 75. | N-[2-(dimetilamino)sikloheksil]-N-metil-3,4-dixlorbenzamid (U-47700) | 0,5 | 2,5 |
| 76. | N-(3,3-dimetilbutan-2-il)-1,3-benzodioksol-5-karboksamid | 0,6 | 3 |
| 77. | Dimetiltiambuten | 0,5 | 2,5 |
| 78. | (1S,5R,13R,17R)-10,14-dimetoksi-4-metil-12-oksa-4-azapentasiklo[9.6.1.01,13.05,17.07,18]oktadeka-7,9,11(18),14-tetraen (dihidrotebain) | 0,5 | 2,5 |
| 79. | Dioksafetil-butirat | 0,1 | 0,5 |
| 80. | Dipipanon | 0,01 | 0,05 |
| 81. | Difenoksilat | 0,1 | 0,5 |
| 82. | Difenoksin | 0,1 | 0,5 |
| 83. | Dietiltiambuten | 0,5 | 2,5 |
| 84. | Drotebanol | 0,5 | 2,5 |
| 85. | Ekqonin | 0,2 | 1 |
| 86. | Etilmetiltiambuten | 0,5 | 2,5 |
| 87. | 1-Etilpiperidin-3-il 2-hidroksi-2,2-difenilasetat (JB-318) | 0,05 | 0,25 |
| 88. | Etokseridin | 0,5 | 2,5 |
| 89. | Etonitazen | 0,0001 | 0,001 |
| 90. | Etorfin | 0,0001 | 0,001 |
| 91. | N-fenil-1-pentil-1H-indol-3-karboksamid | 0,05 | 0,25 |
| 92. | 5-Fenil-N-(piperidin-1-il)-1H-pirazol-3-karboksamid | 0,05 | 0,25 |
| 93. | N-(2-fenilpropan-2-il)-1-pentil-1H-pirrolo[2,3-b]piridin-3-karboksamid | 0,05 | 0,25 |
| 94. | N-fenil-N-[1-(tiofen-2-ilmetil)piperidin-4-il]propanamid (tenilfentanil) | 0,0002 | 0,001 |
| 95. | Fenadokson | 0,5 | 2,5 |
| 96. | Fenazosin | 2 | 10 |
| 97. | Fenampromid | 0,5 | 2,5 |
| 98. | Fenomorfan | 0,5 | 2,5 |
| 99. | Fenoperidin | 0,5 | 2,5 |
| 100. | 4-Flüorizobutirilfentanil (4-FİBF, p-FİBF) | 0,0002 | 0,001 |
| 101. | Furanilfentanil | 0,5 | 2,5 |
| 102. | Furetidin | 0,5 | 2,5 |
| 103. | Folkodin | 0,5 | 2,5 |
| 104. | Hidrokodon | 0,5 | 2,5 |
| 105. | N-hidroksi-2-[2,5-dimetoksi-4-(propilsulfanil)fenil]etanamin (HOT-7) | 0,05 | 0,25 |
| 106. | (6S,6aR,9R,10aR)-9-hidroksi-6-metil-3-[[(2R)-5-fenilpentan-2-il]oksi]-5,6,6a,7,8,9,10,10a-oktahidrofenantridin-1-il asetat(CP 50,5561) | 0,05 | 0,25 |
| 107. | Hidroksipetidin | 0,5 | 2,5 |
| 108. | Hidromorfinol | 0,5 | 2,5 |
| 109. | Hidromorfon | 0,5 | 2,5 |
| 110. | 2-(1H-indol-3-il)-1-morfolinoetanon | 0,05 | 0,25 |
| 111. | 1-(1H-indol-3-il)-3,3,4-trimetil-pent-4-en-1-on | 0,05 | 0,25 |
| 112. | İzometadon | 0,5 | 2,5 |
| 113. | N-[(1S)-1-karbamoil-2,2-dimetilpropil]-3-(3-hidroksi-3-metilbutil)-2-oksobenzimidazol-1-karboksamid (PF-03550096) | 0,05 | 0,25 |
| 114. | N-(1-Karbamoil-2-metilpropil)-1-pentil-5-fenil-1H-pirazol-3-karboksamid | 0,05 | 0,25 |
| 115. | (1-Karboksipropil)-1-pentil-1H-indazol-3-karboksilat | 0,05 | 0,25 |
| 116. | Karfentanil | 0,002 | 0,01 |
| 117. | Ketobemidon | 0,01 | 0,5 |
| 118. | Klonitazen | 0,0002 | 0,001 |
| 119. | Kodoksim | 0,5 | 2,5 |
| 120. | Koka yarpağı | 20 | 250 |
| 121. | Levometorfan | 0,5 | 2,5 |
| 122. | Levomoramid | 0,5 | 2,5 |
| 123. | Levorfanol | 0,5 | 2,5 |
| 124. | Levofenasilmorfan | 0,5 | 2,5 |
| 125. | Metadonun aralıq məhsulu | 0,5 | 2,5 |
| 126. | Metazosin | 2 | 10 |
| 127. | Metildezorfin | 0,5 | 2,5 |
| 128. | N-metil-1,2-difeniletilamin | 0,02 | 0,1 |
| 129. | Metildihidromorfin | 0,5 | 2,5 |
| 130. | 3-metilfentanil | 0,0002 | 0,001 |
| 131. | 1-(1-Metil-3-metoksisikloheksil)piperidin (3-MeO-MPC) | 0,05 | 0,25 |
| 132. | 1-Metilpiperidin-3-il 2-hidroksi-2,2-difenilasetat (JB-336) | 0,05 | 0,25 |
| 133. | Metil 2-{[9-(sikloheksilmetil)-9H-karbazol-3-il]formamido}-3,3-dimetilbutanoat (MDMB-CHMCZCA) | 0,05 | 0,25 |
| 134. | 3-metiltiofentanil | 0,0002 | 0,001 |
| 135. | Metoksiasetilfentanil | 0,0002 | 0,001 |
| 136. | 5-Metoksi-3-(2-metoksibenzil)-7-pentil-2H-xromen-2-on (PSB-SB-1202) | 0,05 | 0,25 |
| 137. | 3-[2-(2-Metoksibenzilamino)etil]-1H-xinazolin-2,4-dion (RH-34) | 0,05 | 0,25 |
| 138. | Metoksiketamin | 0,02 | 0,1 |
| 139. | Metopon | 0,5 | 2,5 |
| 140. | MFPP (MPPP, 1-metil-4-fenil-4-piperidinol propionat (efir)) | 0,5 | 2,5 |
| 141. | Mirofin | 0,5 | 2,5 |
| 142. | Moramidin aralıq məhsulu | 0,5 | 2,5 |
| 143. | Morferidin | 0,5 | 2,5 |
| 144. | Morfin metilbromid | 0,5 | 2,5 |
| 145. | Morfinmetobromid | 0,5 | 2,5 |
| 146. | Morfin-N-oksid | 0,5 | 2,5 |
| 147. | Naftalin-2-il-1-(2-ftorfenil)-1H-indazol-3-karboksilat (3-CAF) | 0,05 | 0,25 |
| 148. | Nikodikodin | 0,5 | 2,5 |
| 149. | Nikokodin | 0,5 | 2,5 |
| 150. | Norkodein | 0,5 | 2,5 |
| 151. | Nikomorfin | 0,5 | 2,5 |
| 152. | Norasimetadol | 0,5 | 2,5 |
| 153. | Norlevorfanol | 0,5 | 2,5 |
| 154. | Normetadon | 0,5 | 2,5 |
| 155. | Normorfin | 0,5 | 2,5 |
| 156. | Norpipanon | 0,5 | 2,5 |
| 157. | Okfentanil | 0,0002 | 0,001 |
| 158. | Oksikodon | 0,5 | 2,5 |
| 159. | Oksimorfon | 0,5 | 2,5 |
| 160. | Ortoflüorofentanil | 0,0002 | 0,001 |
| 161. | Paraflüorbutirilfentanil | 0,0002 | 0,001 |
| 162. | Para-flüorofentanil | 0,0002 | 0,001 |
| 163. | (1-Pentil-1H-indazol-3-il)(pirrolidin-1-il)metanon | 0,05 | 0,25 |
| 164. | (1-Pentil-1H-indol-3-il)(pirrolidin-1-il)metanon | 0,05 | 0,25 |
| 165. | PEPAP | 0,5 | 2,5 |
| 166. | Petidin | 0,5 | 2,5 |
| 167. | Petidinin aralıq məhsulu A | 0,5 | 2,5 |
| 168. | Petidinin aralıq məhsulu B | 0,5 | 2,5 |
| 169. | Petidinin aralıq məhsulu C | 0,5 | 2,5 |
| 170. | Piminodin | 0,5 | 2,5 |
| 171. | Proheptazin | 0,5 | 2,5 |
| 172. | Rasemetorfan | 0,5 | 2,5 |
| 173. | Rasemoramid | 0,5 | 2,5 |
| 174. | Rasemorfan | 0,5 | 2,5 |
| 175. | Remifentanil | 0,002 | 0,01 |
| 176. | Sikloheksil-[1,1'-bifenil]-3-ilkarbamat (URB602) | 0,05 | 0,25 |
| 177. | Siklopropilfentanil | 0,0002 | 0,001 |
| 178. | Sufentanil | 0,0002 | 0,001 |
| 179. | Tebain | 0,2 | 1 |
| 180. | Tebakon (asetildihidrokodeinon) | 0,5 | 2,5 |
| 181. | Tetrahidrofuranilfentanil (THF-F) | 0,0002 | 0,001 |
| 182. | 3-(2,2,3,3-Tetrametilsiklopropankarbonil)indol | 0,05 | 0,25 |
| 183. | Tilidin | 0,5 | 2,5 |
| 184. | Tiofentanil | 0,0002 | 0,001 |
| 185. | Xaşxaş kütləsinin konsentratı | 5 | 500 |
| 186. | Xinolin-8-il-1-pentil-1H-pirrolo[2,3-c]piridin-3-karboksilat | 0,01 | 0,05 |
| 187. | 4-Xlor-N-(1-fenetilpiperidin-2-iliden) benzolsulfonamid | 0,002 | 0,01 |

2. "II siyahı. Psixotrop maddələr" fəslində:

2.1. 7-ci maddədə "Brolamfetamin" sözü "Brolamfetamin (DOB)" sözləri ilə əvəz edilsin;

2.2. 18-ci maddədə "Deksafetamin" sözü "Deksamfetamin" sözü ilə əvəz edilsin;

2.3. 26-cı maddədə "Etisiklidin" sözü "Etisiklidin FSH" sözləri ilə əvəz edilsin;

2.4. 39-cu maddədə "Fepranon" sözü "Amfepramon (dietilpropion, fepranon)" sözləri ilə əvəz edilsin;

2.5. 56-cı maddədə "Lefetamin" sözü "Lefetamin (SPA)" sözləri ilə əvəz edilsin;

2.6. 60-cı maddədə "(+)-Lizerqid" sözü "Lizerqid (LSD, LSD-25)" sözləri ilə əvəz edilsin;

2.7. 61-ci maddədə "MDE, N<2 -etil MDA" sözləri "MDE, N-etil MDA" sözləri ilə əvəz edilsin;

2.8. 62-ci maddədən "(MDMA)" sözü çıxarılsın;

2.9. 65-ci maddədə "4 -meti laminoreks" sözləri "4-metilaminoreks" sözü ilə əvəz edilsin;

2.10. 67-ci maddədə "Metafetamin" sözü "Metamfetamin" sözü ilə əvəz edilsin;

2.11. 68-ci maddədə "Metafetamin rasemat" sözləri "Metamfetamin rasemat" sözləri ilə əvəz edilsin;

2.12. 77-ci maddədə "N-qidrooksi MDA" sözləri "N-hidroksi MDA" sözləri ilə əvəz edilsin;

2.13. 82-ci maddədə "Paraqeksil" sözü "Paraheksil" sözü ilə əvəz edilsin;

2.14. 91-ci maddədə "Pirvaleron" sözü "Pirovaleron" sözü ilə əvəz edilsin;

2.15. 93-cü maddədə "Rolisiklidin" sözü "Rolisiklidin (FHP, FSPİ)" sözləri ilə əvəz edilsin;

2.16. 98-ci maddədə "Tenosiklidin" sözü "Tenosiklidin (TSP)" sözləri ilə əvəz edilsin;

2.17. 106-cı maddədə "BZP-N-benzilpiperazin" sözləri "BZP, N-benzilpiperazin" sözləri ilə əvəz edilsin;

2.18. 115-ci maddədə "para-metil-4-metilaminoreks (4,4-DMAR)" sözləri "Para-metil-4-metilaminoreks (4,4'-DMAR, 4.4' Dimetilaminoreks)" sözləri ilə əvəz edilsin;

2.19. aşağıdakı məzmunda 117-176-cı maddələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 117. | AB-CHMİNACA | 0,05 | 0,25 |
| 118. | AB-PİNACA | 0,015 | 0,15 |
| 119. | ADB-CHMİNACA (MAB-CHMİNACA) | 0,05 | 0,25 |
| 120. | ADB-FUBİNACA | 0,05 | 0,25 |
| 121. | Aprobarbital | 2 | 10 |
| 122. | AM-2201 (JWH 2201) | 0,01 | 0,05 |
| 123. | Amineptin | 5 | 25 |
| 124. | Brallobarbital | 2 | 10 |
| 125. | Brotizolam | 2 | 10 |
| 126. | Buprenorfin | 0,005 | 0,025 |
| 127. | 2 C-B | 0,01 | 0,05 |
| 128. | CUMYL-4CN-BİNACA | 0,05 | 0,25 |
| 129. | Dekstrometorfan | 0,5 | 3 |
| 130. | Dezxloretizolam | 1 | 5 |
| 131. | Diklazepam | 1 | 5 |
| 132. | 3-(2,6-Dixlorfenil)-2-etil-3,4-dihidroxinazolin-4-on (xlorokvalon) | 1 | 5 |
| 133. | DMT (dimetiltriptamin) | 0,5 | 2,5 |
| 134. | Dronabinol (delta-9-tetrahidrokannabinol) | 0,05 | 0,25 |
| 135. | 3-(2-Etilfenil)-2-metil-3,4-dihidroxinazolin-4-on (etakvalon) | 1 | 5 |
| 136. | Etilfenidat | 0,2 | 1 |
| 137. | N-etilnorpentilon (efilon) | 0,05 | 0,25 |
| 138. | Etilon | 0,2 | 2,5 |
| 139. | Etizolam | 1 | 5 |
| 140. | Etriptamin | 0,5 | 2,5 |
| 141. | 5F-APİNACA (5F-AKB-48) | 0,05 | 0,25 |
| 142. | Fensiklidin (FSP) | 0,02 | 0,1 |
| 143. | 4-Flüoramfetamin (4-FA, 4-FMP, PAL-303, para-flüoramfetamin (PFA)) | 0,01 | 0,05 |
| 144. | Fonazepam | 1 | 5 |
| 145. | Ftorbromazepam | 1 | 5 |
| 146. | Ftorbromazolam | 1 | 5 |
| 147. | FUB-AMB (MMB-FUBİNACA, AMB-FUBİNACA) | 0,05 | 0,25 |
| 148. | Heptabarbital | 2 | 10 |
| 149. | N-hidroksi-2-(difenilmetilsulfinil)asetamid (adrafinil) | 0,5 | 5 |
| 150. | JWH-018 | 0,01 | 0,05 |
| 151. | Klonazolam | 1 | 5 |
| 152. | Kloniprazepam | 1 | 5 |
| 153. | Kvazepam | 0,2 | 1 |
| 154. | 5F-MDMB-PİNACA (5F-ADB) | 0,05 | 0,25 |
| 155. | MDMB-CHMİCA | 0,05 | 0,25 |
| 156. | Mefedron (4-metilmetkation) | 0,2 | 2,5 |
| 157. | Meklokvalon | 0,5 | 2,5 |
| 158. | Meklonazepam | 1 | 5 |
| 159. | Metilfenidat | 0,2 | 1 |
| 160. | 2-Metil-3-(2-metoksi-4-nitrofenil)-3,4-dihidroxinazolin-4-on (nitrometakvalon) | 1 | 5 |
| 161. | Metiopropamin (MPA) | 0,2 | 1 |
| 162. | (2-Morfolin-4-iletil)-1-fenilsikloheksan-1-karboksilat (PRE-084) | 0,5 | 5 |
| 163. | 4-MTA (4-metiltioamfetamin) | 0,02 | 1 |
| 164. | Nifoksipam | 1 | 5 |
| 165. | Nordazepam | 2 | 10 |
| 166. | Pentazosin | 2 | 10 |
| 167. | Pentedron | 0,0002 | 0,001 |
| 168. | Pirazolam | 1 | 5 |
| 169. | 5F-PB-22 (5F-QUPIC, Xinolin-8-il-1-(5-flüorpentil)-1H-indol-3-karboksilat) | 0,05 | 0,25 |
| 170. | Sekbutabarbital | 2 | 10 |
| 171. | Sinazepam | 1 | 5 |
| 172. | Tetrahidrokannabinol (bütün izomerləri) | 0,05 | 0,25 |
| 173. | TMA (alfa-metilmeskalin) | 0,01 | 0,05 |
| 174. | UR-144 | 0,05 | 0,25 |
| 175. | Vinbarbital | 2 | 10 |
| 176. | XLR-11 | 0,05 | 0,25 |

3. "III siyahı. Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər" fəsli üzrə:

3.1. "Bitkilərin adı" sütunu aşağıdakı redaksiyada verilsin:

| Bitkilərin adı |
|---|
| 1. Azərbaycan Respublikasında bitən, lakin kultivasiyası qadağan olunmuş tərkibində narkotik maddələr olan bitkilər: |
| 1.1. tiryək xaşxaşı, yağlı xaşxaşın digər növləri |
| 1.2. çətənə növlü bitkilər |
| 2. Yetişdirmək məqsədilə qanunsuz becərilməsi təşkil edilmiş, çoxillik xaşxaşın və yabanı bitmiş çətənənin kol-kosları |
| 3. Azərbaycan Respublikasının ərazisində iqlim şəraitinə görə bitməyən və kultivasiyası qadağan olunan bitkilər: |
| 3.1. kokain kolu |
| 3.2. kat |

3.2. aşağıdakı məzmunda 3.3-cü maddə əlavə edilsin:

| | | |
|---|---|---|
| 3.3. mimoza hostilis (Mimosa tenuiflora) | 1 ədəd (2 hissə) | 2 ədəd (3 hissə) |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

# Milli Məclisin sədri Sankt-Peterburqda beynəlxalq konfransda çıxış edib





Sankt-Peterburqda səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın (MDB PA) təşəbbüsü ilə AŞ PA, ATƏT PA, Aralıq dənizi Parlament Assambleyası və BMT-nin Terrorla Mübarizə İdarəsi tərəfindən birgə təşkil olunan "COVID-19 pandemiyası şəraitində qlobal çağırışlar və təhdidlər. Terrorizm və şiddətli ekstremizm" mövzusunda beynəlxalq konfransda iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan parlamentinin sədri Sahibə Qafarova əvvəlcə koronavirus pandemiyası şəraitində də aktuallığını qoruyan terrorizm və şiddətli ekstremizm probleminə həsr olunmuş beynəlxalq konfransın keçirilməsinə görə MDB PA-nın və digər təşkilatların rəhbərliyinə minnətdarlığını ifadə edib.

Milli Məclisin sədri hazırda bütün dünya ictimaiyyətinin səylərinin yeni infeksiyaya qarşı mübarizə kimi mürəkkəb problemin aradan qaldırılmasına səfərbər olunduğuna diqqət çəkərək vurğulayıb ki, XXI əsrin qlobal təhdid və çağırışlarının iqlim dəyişikliyi, silahlı qarşıdurmalar, şiddətli ekstremizm, terrorizm və onun kiberterrorizm, bioterrorizm kimi təhlükəli növləri COVID-19-un yayıldığı şəraitdə çox böyük təhlükə mənbəyidir.

Sahibə Qafarova beynəlxalq konfransın iştirakçılarının nəzərinə çatdırıb ki, Azərbaycan pandemiyanın ilk günlərindən etibarən yeni koronavirus infeksiyasına qarşı mübarizənin ön cərgəsində olub, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində maliyyə yardımı göstərib, həmçinin dünyanın 30-dan çox ölkəsinə yeni növ koronavirusun qarşısının alınması üçün müxtəlif vasitələrlə humanitar yardımlar edib. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunmuş Xüsusi Sessiyası keçirilib.

Milli Məclisin sədri bildirib ki, dünya dövlətlərinin diqqətinin son illərdə ən ciddi böhrana səbəb olan pandemiyaya yönəlməsinə baxmayaraq, terrorizmə və şiddətli ekstremizmə qarşı mübarizə qlobal gündəmin ən aktual məsələlərindən biri olaraq qalır. Sahibə Qafarova əmin olduğunu bildirib ki, terrorizmə və şiddətli ekstremizmə qarşı mübarizənin vacib istiqamətlərindən biri silahlı münaqişələrin nizamlanmasıdır.

Milli Məclisin sədri konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, pandemiya fonunda dünya ölkələrinin koronavirusla bağlı yaranmış vəziyyətdən çıxış yolu axtarmaq üçün birləşməyə başladığı dövrdə beynəlxalq ictimaiyyətin bütün dünyada atəşkəs çağırışları etməsinə baxmayaraq, Ermənistan ötən ilin yayında və sentyabrında yenidən Azərbaycana qarşı hərbi təxribatlara əl ataraq yeni ərazilər işğal etməyə cəhd göstərdi. Şəhərlərimiz, kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə, ballistik raketlərdən bombardmana məruz qaldı, bu da hərbçilər və mülki əhali arasında böyük itkilərə səbəb oldu.

Azərbaycan parlamentinin sədri məlumat verib ki, həmin dövrdə Ermənistan tərəfindən planetin müxtəlif guşələrindən olan terrorçular - Suriyadan, Livandan, hətta Avropa dövlətlərindən etnik ermənilər münaqişə zonasına gətirildilər.

Milli Məclisin sədri xatırladıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycan düşmənə layiqli cavab verdi, ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Biz işğal olunmuş ərazilərimizi təxribatçı qruplardan, silahlı dəstələrdən, terrorçulardan təmizləməyə nail olduq. BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan və təəssüf ki, yerinə yetirilməsi mexanizmi istifadə olunmayan 4 qətnaməsini faktiki olaraq özümüz yerinə yetirdik. Keçən il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri ilə Ermənistanın baş naziri arasında üçtərəfli bəyanat imzalandı.

Sahibə Qafarova konfrans iştirakçılarına məlumat verib ki, hazırda işğaldan azad olunmuş ərazilərdə minalardan təmizləmə işləri aparılır. Bununla belə, Ermənistan tərəfi növbəti dəfə beynəlxalq humanitar hüququn prinsiplərini pozaraq minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir. Minaların partlaması nəticəsində həm hərbçilər, həm də mülki şəxslər həlak olublar. Əgər Ermənistan minalanmış ərazilərin xəritələrini təqdim etsəydi, - beynəlxalq hüquqa uyğun olaraq o, bunu etməli idi, - müharibədən sonrakı dövrdə bu itkilər olmaya bilərdi. Bununla əlaqədar Azərbaycan beynəlxalq təşkilatlara müraciət edib. Sahibə Qafarova beynəlxalq təşkilatları bu məsələdə Ermənistana təsir göstərməyə çağırıb.

Konfransda daha bir mühüm məsələyə də diqqət yönəldən parlamentin sədri bildirib ki, beynəlxalq sabitliyi zəiflədən amilləri aradan qaldırmaq, terrorizm və şiddətli ekstremizm risklərinin qarşısını almaq üçün bütünlükdə beynəlxalq ictimaiyyət tərəfindən yeni strateji kursun işlənib hazırlanması vacibdir. Həmin kurs ikili standartları istisna etməli, bəzi dövlətlərin beynəlxalq hüququn təməl prinsipləri və normaları ilə açıq ziddiyyət təşkil edən, həmçinin beynəlxalq təhlükəsizliyi və digər dövlətlərin suverenliyini təhlükə altında qoyan metod və vasitələrdən istifadə etmək cəhdlərini əngəlləməlidir.

Terrorizmə qarşı mübarizənin mühüm aspektlərindən bəhs edən Milli Məclisin sədri Sahibə Qafarova deyib ki, ekstremizmə və terrorizmə qətiyyətlə "yox" deyərək biz cəmiyyətlərimizdə dözümlülük, sülhsevərlik, tolerantlıq kimi dəyərlərin təbliğinə xüsusi diqqət yetirməliyik. Axı, ayrı-seçkilik, ksenofobiya, antisemitizm kimi təhlükəli meyillərin bəşər tarixində qlobal fəlakətlərə səbəb olduğu hamımıza yaxşı məlumdur.

Çıxışının sonunda terrorizmə və ekstremizmə qarşı mübarizədə hüquq normaları və qanunvericilik aktları yaradan parlamentarilərin töhfəsinin mühüm əhəmiyyətini qeyd edən Sahibə Qafarova hazırkı konfransda terrorizm və ekstremizmlə mübarizə məsələlərinin müzakirəsinə yaradılan imkanı müsbət qiymətləndirib, konfrans iştirakçılarına uğurlar diləyib.

# Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələri müzakirə olunub



Milli Məclisin sədri Sahibə Qafarova Rusiya Federasiyasına səfəri çərçivəsində Qazaxıstan parlamenti Senatının sədri Maulen Aşımbayev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, qazaxıstanlı spikeri salamlayan Milli Məclisin sədri ölkələrimiz arasında münasibətlərinin bir çox sahələri əhatə etdiyini bildirib. O, Azərbaycanın Qazaxıstanla münasibətlərə böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, dövlətlərimiz arasında imzalanmış sənədlər əməkdaşlığımız üçün möhkəm hüquqi bazadır. Türkdilli ölkələr arasında bərqərar olmuş strateji əlaqələr qardaş ölkələrin əməkdaşlığının daha da genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

Dövlətlərarası münasibətlərin inkişafında Azərbaycan və Qazaxıstan parlamentlərinin rolundan danışan Sahibə Qafarova hər iki ölkənin qanunvericilik orqanlarında mövcud olan dostluq qruplarının fəaliyyətini qeyd edib. Bildirib ki, qarşılıqlı fikir mübadiləsi parlamentlərarası əməkdaşlığın dərinləşməsinə və inkişafına kömək edir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbə haqqında məlumat verən Milli Məclisin sədri deyib ki, artıq münaqişə tarixə qovuşub və Azərbaycan işğaldan azad olunan ərazilərin bərpasına başlayıb. Ermənistanın minalanmış ərazilərin xəritəsini təqdim etməkdən imtina etdiyini söyləyən Sahibə Qafarova bildirib ki, bu, beynəlxalq humanitar hüququn prinsiplərinin pozulmasıdır, beynəlxalq ictimaiyyət bu məsələdə Ermənistana təsir göstərməlidir.

Görüşdə Qazaxıstan parlamenti Senatının sədri Maulen Aşımbayev Azərbaycanın bu ölkə üçün çox mühüm və etibarlı tərəfdaş olduğunu bildirib. O, ikitərəfli əlaqələrin bütün sahələrdə dinamik inkişaf etdiyini, münasibətlərin daha da dərinləşməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Maulen Aşımbayev diqqətə çatdırıb ki, ali qanunvericilik orqanları arasında əlaqələrin inkişafı digər sahələrə də öz müsbət təsirini göstərir. Bu, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından əhəmiyyətlidir. Qazaxıstan Senatının sədri Azərbaycanın Türk PA-nın fəaliyyətinə çox mühüm töhfələr verdiyini də diqqətə çatdırıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Milli Məclisin sədri Sahibə Qafarova Qırğızıstan parlamentinin sədri ilə görüşüb

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) yaz sessiyasında iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərində səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova aprelin 15-də Qırğızıstan Joqorku Keneşinin (parlamentinin) sədri Talant Mamıtovla görüşüb.



Milli Məclisin sədri görüşdən məmnunluğunu ifadə edərək bildirib ki, bu qəbildən olan görüşlər iki ölkə arasında münasibətlərin inkişafına müsbət töhfə verir. O qeyd edib ki, münasibətlərimizin möhkəmlənməsində dövlət başçılarımızın görüşləri və qarşılıqlı səfərləri xüsusi rol oynayır. Ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin hüquqi bazasını təşkil edir.

Görüşdə məlumat verilib ki, bu gün Azərbaycanda müxtəlif siyasi və iqtisadi islahatlar uğurla həyata keçirilir. Böyük transmilli layihələr, neft və qaz boru kəmərlərinin inşası ölkəmizin, o cümlədən tərəfdaş dövlətlərin inkişafı üçün mühüm imkanlar yaradır. Eyni zamanda Böyük İpək yolunun bərpası həm Azərbaycan, həm də bu strateji yolun üzərində yerləşən ölkələr üçün çox böyük əhəmiyyətə malikdir.

Azərbaycan-Qırğızıstan parlamentlərarası münasibətlərinə toxunan Milli Məclisin sədri hər iki ölkənin qanunvericilik orqanında fəaliyyət göstərən dostluq qruplarının rolunu qeyd edib, beynəlxalq parlament təşkilatlarında uğurla həyata keçirilən əməkdaşlığın önəmini vurğulayıb. Bildirib ki, Joqorku Keneş Milli Məclisin əməkdaşlıq memorandumu imzaladığı parlamentlərdən biridir.

Söhbət zamanı Milli Məclisin sədri Sahibə Qafarova 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın BMT-nin qətnamələrini yerinə yetirərək torpaqlarını işğaldan azad etdiyini söyləyib, hazırda münaqişənin geridə qaldığını və ölkəmiz üçün yeni bir mərhələnin - quruculuq və yenidənqurma dövrünün başladığını qeyd edib.

Qırğızıstan parlamentinin sədri Talant Mamıtov ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini, bu münasibətlərin dərinləşməsi üçün yaxşı şəraitin olduğunu söyləyib. Bildirilib ki, parlamentlər səviyyəsində münasibətlərimizin inkişafı həyatın digər sahələrində əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edir. Deputatlarımızın mütəmadi görüşləri, müxtəlif beynəlxalq platformalarda birgə iştirakı ümumi mənafelərə xidmət edir.

O, Azərbaycanın qlobal pandemiyaya - koronavirusa qarşı mübarizədə ölkəsinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Sonra Talant Mamıtov Qırğızıstanda keçirilən referendumun nəticələri haqqında məlumat verərək bu ümumxalq səsverməsinin ölkəsinin gələcək inkişaf tarixində mühüm rol oynayacağını vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# *Milli Məclisin sədri:* "Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir"



Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə Sankt-Peterburqda keçirilən görüşdə söyləyib.

Görüşdə Sahibə Qafarova iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək bildirib ki, dövlətlərimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızın möhkəm hüquqi bazasını təşkil edir. Milli Məclisin sədri münasibətlərimizin hazırkı yüksək səviyyəyə çatmasında ölkə prezidentlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların əhəmiyyətli rol oynadığını vurğulayıb.

Parlamentin sədri Sahibə Qafarova Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan üçün geridə qaldığını, 44 gün davam edən Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 30 il işğal altında qalmış torpaqlarımızı azad etdiyini vurğulayıb. Azad olunmuş ərazilərdə aparılan quruculuq işləri barədə məlumat verən Milli Məclisin sədri təəssüflə bildirib ki, Ermənistan bütün çağırışlara baxmayaraq, beynəlxalq humanitar hüququn prinsiplərini kobud şəkildə pozaraq minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina edir. O, beynəlxalq ictimaiyyəti bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoymağa çağırıb.

Sədr Sahibə Qafarova ölkəmizdə pandemiya ilə mübarizə sahəsində görülən işlər barədə həmsöhbətinə məlumat verib.

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında parlamentlərin rolunu vurğulayıb, 2013-cü ildə Azərbaycana səfərini məmnunluqla xatırlayıb. T.Narbayeva Azərbaycan və Özbəkistan regionları arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini də diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclis komitələrinin birgə iclası keçirilib

Aprelin 15-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə İctimai birliklər və dini qurumlar komitəsinin videokonfrans formatında birgə iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlamentin sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli iclasın gündəliyindəki "Dini etiqad azadlığı haqqında" qanuna təklif edilən dəyişikliklər barədə (birinci oxunuş) ətraflı məlumat verib. Qeyd edib ki, "Dini etiqad azadlığı haqqında" qanun 1992-ci ildə qəbul edilib. Ötən müddətdə qanunvericiliyə olunan dəyişikliklər, müasir dövrün çağırışları dini sahədə yeni normativlərin təsbitini də zəruri edib. Müzakirəyə təqdim edilmiş dəyişikliklərdən məqsəd dini etiqad azadlığı sahəsində faktiki mövcud olan və yeni yaranan münasibətləri milli qanunvericilik sisteminə uyğun daha səmərəli şəkildə tənzimləmək, eləcə də dövlətin, vətəndaşların, dini qurumların bu sahədə hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirmək, həmçinin dini etiqad azadlığının həyata keçirilməsi üçün daha münbit şərait yaratmaqdır.

Milli Məclis sədrinin müavini vurğulayıb ki, bu qanun layihəsi Azərbaycanda əsrlərdən bəri formalaşmış dini tolerantlıq mühitinin qorunmasına, dini-əxlaqi dəyərlərin kənar müdaxilələrdən və təsirlərdən mühafizəsinə xidmət edəcək.

Gündəlikdəki ikinci məsələni Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli şərh edib. Bildirib ki, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlıdır, sənəd uyğunlaşdırma xarakteri daşıyır.

Videokonfransda Milli Məclis sədrinin birinci müavini qanun layihəsində təsbit olunan norma və qaydaların, xüsusən dini ekstremizmin təbliğinə və siyasi məqsədlər üçün dinlərarası fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyətin qadağan edilməsinin vacibliyindən danışıb. Qeyd edib ki, bununla bağlı qanunvericilikdə mülki və cinayət məsuliyyəti mövcuddur, bu baxımdan müzakirəyə çıxarılan layihədə dəqiq mexanizmlərin nəzərdə tutulması müsbət haldır.

Komitələrin birgə iclasında aparılan müzakirələrdə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, deputatlar Ceyhun Məmmədov, Anar İsgəndərov, Erkin Qədirli, Azay Quliyev, Cavanşir Paşazadə, Azər Badamov, Tahir Kərimli, həmçinin Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov qanunlara təklif olunan dəyişikliklərə müsbət münasibət bildiriblər.

Fikir mübadiləsindən sonra gündəlikdəki qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

Videokonfransda İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, komitələrin üzvləri Sevinc Fətəliyeva, Sabir Hacıyev, Nurlan Həsənov, Cəbi Quliyev, Behruz Məhərrəmov iştirak ediblər.

# *XİN:* "Ümid edirik ki, həmsədrlər yeni vəziyyətdə sülhün möhkəmlənməsi istiqamətində mümkün rollarına dair təkliflərini təqdim edəcəklər"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ATƏT-in Minsk qrupunun həmsədrlərinin 2021-ci il 13 aprel tarixli bəyanatına münasibət bildirib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Leyla Abdullayeva bununla bağlı deyib: "Həmsədrlərin öz bəyanatında Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli Birgə Bəyanatının icrası istiqamətində tərəqqini alqışlaması müsbət qiymətləndirilməlidir. Eyni zamanda qeyd etməliyik ki, həmsədrlərin bəyanatının əksər hissəsi yeni postmünaqişə dövrü üçün ən mühüm məsələlərə deyil, daha çox bir sıra digər fikir və elementlərə həsr olunub.

Vətən müharibəsində əldə olunmuş Qələbə nəticəsində yaranmış reallıqda Azərbaycan tərəfinin mövqeyi bəllidir. Bizim prioritetlərimiz sırasına 30 il ərzində davam etmiş münaqişənin təsirinə məruz qalmış ərazilərimizin bərpası, yenidən qurulması və yenidən inteqrasiyası, bu proses nəticəsində və münaqişənin təsirinə məruz qalmış bütün ərazilərində bərpa ediləcək Azərbaycan Respublikasının konstitusion qaydası çərçivəsində həmin ərazilərdə məskunlaşmış bütün, o cümlədən erməni əsilli Azərbaycan vətəndaşlarının etnik, dini və ya digər hər hansı mənsubiyyətindən asılı olmayaraq, bərabərhüquqluluğunun təmin edilməsi daxildir. Eyni zamanda, münaqişənin həlli Azərbaycanla Ermənistan arasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında normal əlaqələrin qurulması üçün perspektiv yaradır.

Ümid edirik ki, həmsədrlər Azərbaycan Respublikası Prezidentinin çağırışına uyğun olaraq özlərinin yaranmış yeni vəziyyətdə sülhün möhkəmlənməsi istiqamətində mümkün rollarına dair təkliflərini müəyyənləşdirəcək və təqdim edəcəklər".

# Zəngəzur dəhlizi artıq reallığa çevrilir

## Beynəlxalq birlik rəsmi Bakının Qarabağı tam nəzarətə götürməsini ədalətin zəfəri kimi qarşılayır

Əvvəli 1-ci səh.



### İlham Əliyevin informasiya siyasəti dünya erməniliyini tərksilah edir

İkinci Qarabağ müharibəsinin nə vaxtsa baş verəcəyi gözlənilən idi. Bu gün dönüb arxaya baxanda görürük ki, İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin qayəsini torpaqlarımızın işğaldan azad olunması təşkil edib. Bu müharibə və Qələbə üçün hazırlıq işləri yalnız ordu quruculuğu ilə məhdudlaşmayaraq kompleks mahiyyət daşıyıb.

Hazırlığın bir istiqaməti də Dağlıq Qarabağ məsələsi ilə bağlı, xüsusən erməni lobbisinin dünyada formalaşdırdığı stereotipləri dağıtmaq, əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq olub. Bu baxımdan Vətən müharibəsində hərbi-siyasi Qələbənin qazanılmasında İlham Əliyevin mütərəqqi informasiya siyasəti olduqca böyük rol oynadı. Müharibə başa çatsa da, Azərbaycan yeni reallıqlar yaratsa da, informasiya siyasətində geri qalmaq olmaz. Çünki düşmən Azərbaycana qarşı informasiya cəbhəsində qarayaxma kampaniyasını davam etdirir.

İlham Əliyevin Vətən müharibəsi dövründə 30-a yaxın xarici KİV-ə müsahibələri, çıxışları, bəyanatları, 4 saatlıq mətbuat konfransı, mühüm beynəlxalq platformalarda nitqləri göstərir ki, ümumiyyətlə, Azərbaycan Prezidenti təkcə dövlətin idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir. ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans bunun növbəti təsdiqi oldu.

Dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin iştirakı ilə keçirilən bu konfrans göstərdi ki, Prezident İlham Əliyevin ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdıran yeni informasiya strategiyası sistemlilik və operativlik kimi prinsiplərə əsaslanmaqla milli maraqlarımızı inamla təmin edir. Birmənalı şəkildə demək olar ki, İlham Əliyevin informasiya sahəsində fəaliyyəti Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərksilah edilməsində, beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasında mühüm rol oynayır.

### Ermənistanın yeni reallıqlarla barışmaqdan başqa yolu yoxdur

Artıq Dağlıq Qarabağ problemi başa çatıb, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar öz növbəsində Cənubi Qafqazda yeni reallıqların yaranması deməkdir. Müharibənin qalibi olan İlham Əliyev Ermənistanı Azərbaycanın milli maraqlarını tam diktə edən bəyanata imza atmağa məcbur etdi.

Artıq bəyanatın Azərbaycan ərazilərinin azad olunması ilə bağlı olan bəndləri icra olunub. Kommunikasiyaların bərpası istiqamətində fəaliyyət davam edir. Tarixi Azərbaycan ərazisi olan Zəngəzurdan keçəcək kommunikasiyalar bölgənin tranzit xəritəsinə mühüm yeniliklər gətirəcək. Bütün bunların fonunda görünən həm də odur ki, Ermənistanın başına gələnlərin, bütün dünyada milli ləyaqətinin sınmasının səbəbi bu ölkənin başında duranların yürütdüyü işğal siyasətidir. Belarus Prezidentinin ölkəmizə işgüzar səfəri zamanı mətbuata bəyanatında bu barədə danışan İlham Əliyev deyib: *"Ermənistanın başına gələnlərin təqsirkarı məhz 20 il ərzində ölkəni uçuruma aparan Ermənistan rəhbərliyidir. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun alçaldıcı məğlubiyyəti və tamamilə darmadağın edilməsi ilə başa çatıb. Bunun əsas təqsirkarları Ermənistanda bundan əvvəl hakimiyyətdə olanlardır. Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmlənməsinə və bu gün həm Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupu çərçivəsində, həm də qonşu ölkələr - Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik".*

Azərbaycan Qarabağ problemini güc yolu ilə həll etməklə tarixi ədaləti, beynəlxalq hüququ yoluna qoydu, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi. Beynəlxalq birlik rəsmi Bakının Qarabağı tam nəzarətə götürməsini ədalətin zəfəri kimi qarşılayır. Ermənistanın isə Azərbaycanın regionda yaratdığı yeni reallıqlarla barışmaqdan başqa yolu yoxdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlham Əliyev postsovet məkanının ən savadlı, ən mədəni Prezidentidir

## Bunu rəsmən bəyan edən Aleksandr Lukaşenko Azərbaycanın böyük Zəfərini alqışladı

Əvvəli 1-ci səh.

İlham Əliyev həmçinin qarşılıqlı səfərlərin müntəzəm xarakter daşıdığını da vurğulayaraq bunu ölkələrimiz arasında sıx siyasi əlaqənin, yüksək səviyyədə etimadın göstəricisi adlandırdı. Bunun nəticəsidir ki, iqtisadi əməkdaşlığın göstəriciləri yüksəlir. Hətta keçən il pandemiyaya baxmayaraq, əmtəə dövriyyəsinin artması bunu təsdiqləyən reallıqdır.

### Aleksandr Lukaşenkodan İlham Əliyev və Qarabağ açıqlaması...

Birgə bəyanat zamanı A.Lukaşenko Dağlıq Qarabağ probleminin həllində İlham Əliyevin mövqeyini, müstəqil, qətiyyətli və prinsipial siyasətini yüksək qiymətləndirdi.

Belarus Prezidenti dedi ki, İlham Əliyev danışıqlar prosesi zamanı verdiyi bütün vədlərə sadiq olub. Münaqişənin həlli ilə bağlı müzakirələrdə tam səmimi və açıq şəkildə Azərbaycanın məsələni sülh yolu ilə həll etmək istədiyini vurğulayıb: "Əhsən Prezidentə. O dedi ki, biz tarixin bu səhifəsini çevirmək istəyirik. Mənim mövqeyim, mənim arzum budur. Allah eləsin, bu bəla sovuşsun. Ermənistan və Azərbaycan xalqlarının qəlbində kin-küdurət izləri qalmasın. Əminəm ki, İlham Əliyev erməniləri əsla sıxışdırmayacaq, onlarla hesabı çürütmək, qisas almaq fikrinə düşməyəcək. O, savadlı, mədəni insandır. Mən həmişə deyirəm ki, sovet dövründə o, bizim Sovet İttifaqının ən yaxşı ali məktəbini - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. O, postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır. Mən həmişə bu barədə də açıq danışmışam".

Problemin həll edilməsində İlham Əliyevin çox böyük rol oynadığını deyən Belarus Prezidenti hesab edir ki, indi sahəsi Lüksemburqdan 4 dəfə böyük və ya Livanın sahəsinə bərabər ərazilərdə böyük işlər görülməlidir. Bu, daha uzunmüddətli və çox çətin epopeya olacaq. A.Lukaşenko bunun sülh epopeyası olmasını arzulayır.

A.Lukaşenko Azərbaycanın şanlı Qələbəsini qiymətləndirərək özünün və xalqının mövqeyini bəyan etdi: "Belaruslar Prezident tərəfindən alqışlanan müəyyən mövqe tutublar, biz bundan sonra da özümüzü konstruktiv aparacağıq. Azərbaycan rəhbərliyi də bilməlidir ki, belaruslar etibarlı dostlar və etibarlı insanlardır. Bizim razılığa gəldiyimiz bütün məsələlər reallaşacaq".

### Yeni sazişlər münasibətləri daha da şaxələndirəcək

Dövlət başçılarının səfərləri zamanı adətən yeni sazişlər imzalanır. Bu səfər zamanı da iki ölkə arasında yeni sənədlər imzalandı. Bununla da Azərbaycanla Belarus arasındakı hüquqi bazanı təşkil edən sənədlərin sayı 122-yə çatdı.

Baytarlıq, turizm və energetika sahəsində əməkdaşlıq məsələlərinə dair anlaşma memorandumları iki ölkə arasında münasibətləri daha da şaxələndirəcək. Bu, iki ölkənin prezidentləri arasında yüksək qarşılıqlı etimadın, ikitərəfli münasibətlərin məzmun və mahiyyətinin zənginliyinin bariz göstəricisidir.

Təkbətək görüş zamanı Aleksandr Lukaşenko mövcud siyasi-iqtisadi əlaqələri qiymətləndirərkən dedi ki, iki ölkə arasında siyasət və iqtisadiyyat sahələrində konkret istiqamətlər baxımından münasibətlər olduqca çoxşaxəlidir, çox düzgündür və onlara heç nə xələl gətirmir: "Biz heç kəsə mane olmuruq və heç kəs də bizə mane ola bilməz. Ona görə ki, əgər sən bir işi görmək istəyirsənsə, buna mane olmaq çətindir".

Siyasi münasibətlərə gəldikdə isə Belarus Prezidenti bildirdi ki, tərəflər arasında həll edilə bilməyən məsələlər yoxdur.

### Belarus Azərbaycanın təcrübəsini öyrənmək istəyir

Səfər çərçivəsində liderlərin təkbətək görüşündə, mətbuata birgə bəyanatlarında bir daha iki ölkə arasında mövcud münasibətlər, iqtisadi-ticari əlaqələr müzakirə olunaraq bütün sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyi vurğulandı.

Aleksandr Lukaşenkonun söylədiyi fikirlərə əsaslanaraq deyə bilərik ki, Azərbaycan Belarus üçün ən etibarlı strateji tərəfdaş olaraq qalır. Belarus Avropanın mərkəzində Azərbaycanın mənafelərinin irəliləməsinə səmimi və açıq şəkildə kömək etməyə hazırdır. İki ölkə arasında əməkdaşlıq üçün qapalı mövzular yoxdur.

Mətbuata birgə bəyanatda A.Lukaşenko mövcud reallıqları dəyərləndirərək dedi ki, hazırda sənaye, kənd təsərrüfatı, ağac emalı, informasiya texnologiyaları, səhiyyə, turizm sahələrində kooperasiya əlaqələrinin inkişafı üçün böyük potensial var. Elmi-texniki sahədə qarşılıqlı əlaqələri dərinləşdirmək üçün yaxşı perspektivlər görünür: "Bizdə daha çox sayda gənclərin təhsil alması üçün nə lazımdırsa edəcəyik. Vaxt gələcək, biz Azərbaycanın təcrübəsini öyrənəcəyik. Yaxşı ali məktəblər çoxdur, lap çoxdur".

### Qarabağda birgə müəssisələr yaradılacaq

Qarabağın bərpası ilə bağlı məsələləri Aleksandr Lukaşenko ilə müzakirə edən İlham Əliyev bildirdi ki, Belarus şirkətlərinin aqrosənaye kompleksləri yaratmaq təcrübəsi məlumdur. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası baxımından bu mövzu, əlbəttə, xüsusi yer tutur.

Birgə bəyanatda İlham Əliyev Qarabağın "yaşıl enerji" zonası elan edildiyini və birinci "ağıllı kənd" layihəsinin praktiki olaraq həyata keçirilməyə hazır olduğunu vurğulayaraq bu sahədə Belarusun təcrübəsinin maraqlı olduğunu söylədi.

Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq fəaliyyətdədir. Dördüncü ölkə isə Belarus ola bilər. Çünki sənaye kooperasiyası iki ölkənin münasibətlərinin çox böyük seqmentidir. Bu layihə ilk dəfə ölkəmizdə Belarus traktorlarının yığılmasından başlayıb. Sonradan isə bu layihələr başqa istehsalat sahələrinə - avtomobillər, yük maşınları, kombaynlar, avtobuslara da daxil olub. İndi isə İlham Əliyevin "Yaşıl Qarabağ zonası" konsepsiyasının icrası zamanı bu layihələr çərçivəsində elektrobuslar istehsalı da nəzərdə tutulur.

Belarus Prezidenti isə ölkəsinin Azərbaycanla birgə, çiyin-çiyinə və məsuliyyətlə fəaliyyət göstərməyə hazır olduğunu vurğuladı: "Biz xüsusən işğaldan azad olunmuş və bərpa ediləcək ərazilərdə birgə müəssisələr yaratmağa hazırıq".

Liderlərin səsləndirdikləri fikirlər onu deməyə əsas verir ki, Belarus Azərbaycanla ticari-iqtisadi sahədə sistemli və uzunmüddətli əməkdaşlıq etmək əzmindədir. Çünki əmtəə dövriyyəsinin artırılması üçün güclü potensial mövcuddur və iqtisadiyyatın inkişafı ilə bağlı iki dövlət rəhbərinin oxşar baxışlarının olması sayəsində geniş istehsal kooperasiyası üçün təməl yaradılıb.

Bir sözlə, liderlər arasındakı görüşdə bütün sahələri əhatə edən müxtəlif məsələlər barədə danışıldı və ən əsası, Belarusun ölkəmizə olan münasibəti bir sıra əhəmiyyətli aspektlərdən diqqəti cəlb etdi.

Bu görüş iki ölkə arasında əmtəə dövriyyəsinin artmasına, nəqliyyat, logistika, maşınqayırma sənayesi, neft-qaz layihələrinin həyata keçirilməsinə, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda yeni sənaye müəssisələrinin qurulması prosesinə öz müsbət təsirini göstərəcək.

Qarabağı 44 günə azad edən İlham Əliyev indi onun hər qarış torpağını cənnətə çevirmək üçün bütün imkanlarını səfərbər edib. Bütün tərəfdaş ölkələrə mesaj göndərərək onları Qarabağda birgə işbirliyinə, investisiya yatırmağa dəvət edir. Belarus da dost dövlət kimi Qarabağın bərpasında Azərbaycanın yanında olacaq. Əminliklə deyə bilərik ki, tezliklə işğaldan azad olunmuş torpaqlarımızda böyük tikinti bumu başlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Prezidentinin son bəyanatı Ermənistanda böyük şok və xof yaradıb

# "Bir də görəcəyik ki, İlham Əliyev Yerevanda hərbi parad keçirir"

Əvvəli 1-ci səh.

Erməni siyasi icmalçı Qalust Qriqoryan bu fonda olduqca maraqlı mövqe sərgiləyib. Onun sözlərinə görə, Ermənistan cəmiyyəti üçün Azərbaycan Prezidenti İlham Əliyev həmişə həqiqəti deyib. Yerevandan isə daim yanlış məlumat yayılır.

Qalust Qriqoryan bildirir ki, söhbət əvvəllər və hazırda ölkə rəhbərləri arasında baş tutan pərdəarxası danışıqlardan gedir: "İlham Əliyevin 2016-cı ildə Rusiyada pərdəarxası görüşdən sonra Serj Sarkisyan haqda sözlərini xatırlayaq. O zaman İlham Əliyev bildirmişdi ki, Sarkisyan ona Azərbaycan ərazilərini azad etməyi vəd edib və bunun üçün ona cəmi iki həftə vaxt lazım olduğunu da bildirib. O zaman hamı Azərbaycan liderinin bu sözlərini təkzib edən Sarkisyana inanmışdı, lakin bir neçə ildən sonra cəmiyyət Sarkisyanın Əliyevə verdiyi vəd barədə həqiqəti öyrəndi. Belə misallar çoxdur. Ermənistanın başında duran bütün insanlar, rəhbərliyi düz danışmağı Əliyevdən öyrənməlidirlər".

Qriqoryan onu da bildirib ki, Koçaryan, Sarkisyan və Paşinyan dəfələrlə yalan danışıblar, İlham Əliyev isə erməni tərəfi boynuna almasa da, həmişə həqiqəti deməyi xoşlayıb. Bu mənada o, hesab edir ki, Prezident İlham Əliyevin Zəngəzur və Yerevana qayıtmaq barədə dediklərinin də reallaşmasını gözləmək lazımdır.

Digər erməni ekspert Tatul Manukyan da eyni mövqeni bölüşür. O bildirir ki, Azərbaycan Yerevan daxil olmaqla, Ermənistanda öz tarixi torpaqları hesab etdiyi ərazilərə qayıdacaq: "Buna əmin ola bilərsiniz. 44 günlük müharibə bunu bir daha təsdiq etdi ki, Azərbaycan rəhbərliyi dediklərinə sadiqdir. Ermənistanda buna müqavimət göstərə biləcək hansısa qüvvə yoxdur. Azərbaycanlılar Ermənistan ərazisində yerləşən torpaqlarına qayıdacaqlar. Bu, Azərbaycanın strateji hədəfidir və bu hədəfə çatmaq üçün çalışırlar".

### "Yerevanı tərk edənlərin yerini yəqin ki, tezliklə azərbaycanlılar tutacaq"

Ermənilərin sosial şəbəkələrdəki statuslarından, şərhlərindən görünür ki, onlar ölkələrinin tam məhvə doğru getdiyi, İlham Əliyevin Ermənistan üzərində üstünlüyünün artması barədə ortaq rəydədirlər.

"Facebook" istifadəçilərindən Lilit Aroyan yazır ki, Bakıda olan yanaşmalara əsasən, Ermənistan Azərbaycanın tarixi ərazilərində yaradılıb: "Azərbaycanda açıq bildirilir ki, gənc nəsil Ermənistanın tarixi Azərbaycan torpaqları üzərində qurulduğunu heç vaxt unutmamalıdır. Bu istiqamətdə işlər aparılır. Azərbaycanlıları bu mənada tezliklə Ermənistanda görməkdən təəccüblənmək lazım deyil. Qarabağ müharibəsində qazanılan qələbə azərbaycanlıların bu məsələdə istəklərini artırıb, mövqelərini gücləndirib. Ermənistanda miqrasiyanın genişləndiyi bir vaxtda Yerevanı tərk edənlərin yerini yəqin ki, tezliklə azərbaycanlılar tutacaq".

Aroyanın paylaşımına rəy bildirən Xaçatur Qriqoryanın fikirləri isə həqiqəti göstərir: "İlham Əliyevin son bəyanatı çox qorxuludur. Nə vaxta qədər belə davam edəcək? Bizim baş nazirimiz Paşinyan isə gecələri "Facebook"da oturub axmaq söhbətlər edir. Bu adamın işi-gücü ancaq sosial şəbəkədir. Qarabağı itirdik, Yerevanı da itirsək, sonumuz çatıb deməkdir. Həyatdı da..."

### "İlham Əliyev bizim təhlükəsizliyimizə təminat verərsə, bizə Koçaryandan, Sarkisyandan, Paşinyandan da yaxşı rəhbər olar"

Minas Xosrovyan adlı digər istifadəçinin də "Facebook"da paylaşdığı status çoxlu bəyənmə yığıb: "Xəbəriniz var ki, Azərbaycan vətəndaşı olmaq istəyən ermənilərin sayı reallıqlarla tanış olduqdan sonra daha da artmaqda davam edir?! Əvvəllər onları qınayırdım və bu addımlarını xəyanət hesab edirdim. Ancaq son aylar baş verən hadisələrdən sonra bunun düzgün addım olduğunu düşünürəm. Paşinyan erməniləri Ermənistana qarşı soyutmaqda davam edir. İlham Əliyev bizim təhlükəsizliyimizə təminat verərsə, bizə Koçaryandan, Sarkisyandan, Paşinyandan da yaxşı rəhbər olar. Biz ermənilər boş yerə ölmək istəmirik".

Suren Qriqoryan adlı biri "Facebook"da hakim "Mənim addımım" blokundan olan istifadəçilərin daha çox rəy bildirdiyi qrupda Azərbaycan Prezidentinin "Əgər Zəngəzur dəhlizinə qayıdırıqsa, niyə də Yerevana qayıtmayaq" fikirlərinin geniş müzakirə olunduğu mövzuya maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "Bayaqdan statuslarınıza baxıram və bu qədər yalana heç özünüzün də inanmadığınızı düşünürəm (gülüş işarəsi). Gəlin həqiqəti danmayaq. Paşinyanın apardığı siyasətlə biz nəinki Yerevanı, hətta bütün Ermənistanı da itirə bilərik. İlham Əliyev Qarabağın bərpası üçün milyardlarla dollar vəsait ayırır. Məğlub olan bizdəki hakimiyyət isə dövləti talamaqla ancaq cibini doldurur. Gözləri doymaq bilmir. Paşinyan bu gedişlə Yerevanı hərraca çıxaracaq".

"İlham Əliyevi Yerevanda alqışlarla qarşılayacağımız gün uzaqda deyil"

Vazgen Mıxıtaryanın "Instagram"da çoxminlik səhifələrdən birinin "Paşinyanla iqtisadi yüksəlişə doğru" paylaşımına yazdığı rəy daha çox bəyənmə toplayıb: "Paşinyan Ermənistanı məhv edib. Satılmayan torpaq, zavod, obyekt qalmayıb. Türklər (red. - azərbaycanlılar) Bakıda həlak olan əsgərlərimizin boş dəbilqələrini dünyaya göstərir, siz isə inkişafdan danışırsınız. Əziz ermənilər, mənə gülməyin. Bir gün bu xəbərlə sabahımız açıla bilər: Paşinyan Ermənistandan qaçdı! Azərbaycan əsgəri sərhədi keçib Yerevana doğru yürüyür. İlham Əliyevi Yerevanda alqışlarla qarşılayacağımız gün uzaqda deyil".

Aşot Baqramyan adlı birinin "Odnoklassniki"də paylaşdığı status və ona yazılan rəylər çoxlu bəyənmələr toplayıb: "Dünən təsadüfən "Instagram"da bir səhifədə Azərbaycandakı Hərbi Qənimətlər Parkından şəkilləri gördüm. Maraqla baxdım və sözün əsl mənasında, şok yaşadım. Bu gün isə İlham Əliyev Yerevana qayıtmağı düşünür. Ermənistan rəhbərliyi son günlərdə yenidən müharibədən dəm vurur. Hər halda Bakıda parkda darmadağın olunan texnikalarımıza yaxşı baxmayıblar. Elə hey deyirik müharibə, müharibə, müharibə... Bir də görəcəyik ki, İlham Əliyev Yerevanda hərbi parad keçirir".

### "Paşinyan Yerevanı da satarsa, heç təəccüblənməyək"

Stepan Mirzoyan adlı birisi "İlham Əliyev Yerevana gəlməyin yollarını axtarır. Ermənistanı parlaq gələcək yox, parlaq ölüm gözləyir" başlıqlı "tvit" atıb: "İlham Əliyev Bakıda park açıb, müharibədə həlak olan hərbçilərimizin boş qalan dəbilqələrini nümayiş etdirir və bütün dünyanın gündəm mövzusuna çevrilir. Növbəti gün isə beynəlxalq ictimaiyyət qarşısında niyə də Yerevana qayıtmamasını söyləyir, Paşinyan isə hakimiyyətdə qalmağın yollarını axtarır. Sarkisyan vətənimizi, zavodlarımızın yarısını oliqarxlara, yarısını da xaricilərə satıb. Paşinyan da bütöv Yerevanı satarsa, heç təəccüblənməyək".

Henrix Aşotyan isə "Odnoklassniki"də İlham Əliyevin son bəyanatının yer aldığı paylaşımın altına belə bir şərh yazıb: "Açıq reallıq budur. Azərbaycan Prezidenti 5 il əvvəl apreldə S.Sarkisyana, ötən il isə Qarabağı geri almaqla Paşinyana yüksək peşəkarlığın necə olduğunu göstərdi, əsl dərs verdi. Acı həqiqət olsa da, bu gün Yerevanı düşünməsi çox normaldır. Bizim baş nazirimiz bəs nə cavab verəcək? Seyrçi mövqeyində qalacaq".

Bütün bunlar bir daha azərbaycanlıların Yerevan və digər tarixi torpaqlarına qayıdacaqları ilə bağlı səslənən fikirlərin Ermənistanda nə dərəcədə ciddi qəbul edildiyini aydın nümayiş etdirir. Əslində ermənilərin bu məsələdə haqsız olduğu da deyilə bilməz. Axı Azərbaycan lideri İlham Əliyev ermənilərin etiraf etdiyi kimi, bütün vədlərini yerinə yetirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Lənkəranda müharibə nəticəsində psixoloji problemlər yaşayan bölgə vətəndaşlarına psixoloji yardım göstərilir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində işğalçı düşməni torpaqlarımızdan qovaraq ərazi bütövlüyümüzü bərpa etdi.



Həm Birinci, həm də İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərərək şəhid olanların ailələri, qazilər, müharibədən fiziki və mənəvi əziyyət çəkən insanlar hər zaman dövlətimizin başçısının diqqət və qayğısı ilə əhatə olunub. Bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli, onların zəruri tibbi, o cümlədən psixoloji yardım təminatı daim diqqət mərkəzində saxlanılır.

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar Nazirliyinin (FHN) dəvəti ilə Türkiyədən gəlmiş peşəkar klinik-psixoloq və psixoterapevtlər nazirliyin mütəxəssisləri ilə birlikdə Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşların psixoloji reabilitasiyasını paytaxt sakinləri ilə yanaşı, aprelin 5-dən etibarən Lənkəran şəhərində də davam etdirirlər.

Şəhid ailələri, qazilər, müharibədən fiziki və mənəvi əziyyət çəkən insanlarla yanaşı, cənub bölgəsinin vətəndaşlarına da psixoloji yardım göstərilir.

FHN-nin psixoloqu Davud Sultanov Lənkəranda jurnalistlərə verdiyi müsahibəsində bildirib ki, iki həftə ərzində cənub bölgəsində 121 seans keçirilib, 150-yə yaxın müraciət olub və 101 vətəndaş psixoloji yardım alıb. Müraciətlər əsasən Lənkəran, Masallı, Cəlilabad, Astara və Yardımlı rayonlarından olub.

Humanitar aksiya mayın 5-dək davam edəcək.

Qeyd edək ki, bundan əvvəl FHN tərəfindən Gəncə və Bərdə şəhərlərində də vətəndaşlara psixoloji yardım göstərilib. Aprelin 12-dən etibarən isə ölkəmizin şimal-qərb bölgəsini əhatə etməklə Qəbələ şəhərində türkiyəli psixoloq mütəxəssislərin iştirakı ilə müharibədən və erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşların psixoloji reabilitasiyasına başlanılıb.

Ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək istəyənlər FHN-nin "112" qaynar xətti ilə əlaqə saxlaya bilərlər.

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub



Aprelin 15-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Dmitriy Pantusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

# Mərkəzi ərzaq anbarının bölgələrdə yerləşən bölmələrində yenidənqurma işləri görülüb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminatının və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər çərçivəsində mərkəzi ərzaq anbarının bölgələrdə yerləşən bir bölməsində yenidənqurma işləri görülüb. Burada ərzaq məhsullarının qəbulu, saxlanılması və qoşunlara paylanılması üçün lazımi şərait yaradılıb.

Tez xarab olan ərzaqların saxlanması üçün 200 tonluq soyuducu kamera, quru ərzaqların saxlanması üçün ümumi tutumu 1000 ton olan saxlanc, kartof və tərəvəzlərin saxlanması üçün isə ümumi tutumu 200 tonluq saxlanc və toxunulmaz ehtiyat ərzağının saxlanması üçün 140 ton tutumu olan saxlanc binası mövcuddur.

Bundan əlavə, ərazidə quru ərzaqların saxlanması üçün soyutma sistemi ilə təchiz edilmiş 500 tonluq saxlanc binası və tez xarab olan ərzaqların saxlanması üçün 200 tonluq saxlanc binası inşa edilib.

Hazırda bu istiqamətdə fəaliyyətlər davam etdirilir.

# Ermənistan yenə də tarixlə mifologiyanı qarışıq salır

Ermənistan Xarici İşlər Nazirliyinin nümayiş etdirdiyi yanaşma heç bir təəccüb doğurmur, çünki bu əsassız iddialar ənənəvi olaraq rəsmi Yerevan tərəfindən səsləndirilir.

Əfsuslar olsun ki, Ermənistan tərəfi hər zaman olduğu kimi, eşitdiklərini fərqli şəkildə yozmaqla məşğuldur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva KİV-in Ermənistan XİN-in nümayəndəsinin Azərbaycan Respublikasının Prezidentinin fikirlərinə şərhi ilə bağlı sualını cavablandırarkən bildirib.

Leyla Abdullayeva deyib: "Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən Ermənistan, Azərbaycan rəsmiləri tərəfindən səsləndirilən fikirlərdə də bu kimi məqamlar axtarmağa çalışır.

Məlum olduğu kimi, məhz Ermənistan beynəlxalq hüququn dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı prinsiplərinin əleyhinə çıxış edərək uzun illər ərzində Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirib. Əksinə, Azərbaycan beynəlxalq hüququn sözügedən prinsipləri əsasında ikitərəfli münasibətlərin normallaşdırılmasının tərəfdarıdır və hər zaman bu mövqedən çıxış edib.

Tarixi özlərinin güclü tərəfi kimi qələmə verməyə çalışan Ermənistan yenə də tarixlə mifologiyanı qarışıq salır. Elə bu səbəbdən də illərdir ki, erməni xalqını bu yalanların və miflərin girovuna çeviriblər.

Rəsmi Yerevan bu həqiqəti nə qədər tez anlayarsa, erməni xalqı bir o qədər tez bölgədə dayanıqlı sülh və təhlükəsizlikdən faydalana bilər".

# Abşeronun günəşi həm də elektrik enerjisi verəcək

## Bərpaolunan yeni enerji stansiyasının tikintisi ilə bağlı sənədlər artıq imzalanmışdır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev həmin vaxta qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasının hədəf kimi götürüldüyünü bildirib.

Dövlət başçısının imzaladığı sərəncamlar nəticəsində Azərbaycanda energetikanın digər sahələrində olduğu kimi, bərpaolunan enerji mənbələrindən istifadə sahəsində də əlverişli investisiya mühiti yaradılıb, özəl sərmayələrin cəlb edilməsi və irimiqyaslı layihələrin icrası istiqamətində ardıcıl işlər görülür. Prezidentin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış komissiya fəaliyyətini uğurla davam etdirir.

Xatırladaq ki, keçən ilin əvvəlində Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə külək və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə günəş elektrik stansiyasının tikintisi ilə bağlı icra müqaviləsi imzalanıb. Bunun üçün Prezidentin "Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 29 may 2019-cu il tarixli sərəncamına əsasən, qabaqcadan bərpaolunan enerji sahəsinin inkişafı məqsədilə 10-dək beynəlxalq enerji şirkəti, o cümlədən "Masdar"la əməkdaşlıq əlaqələri yaradılaraq onların investisiya layihələri ilə bağlı təklifləri hərtərəfli şəkildə təhlil edilib. Yüksək rəqabət və şəffaflıq mühitində üç mərhələdə seçim prosesi həyata keçirilib. Sözügedən şirkətlərlə ötən il yanvarın 9-da bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı icra müqavilələri həmin seçim prosesinin nəticəsinə müvafiq olaraq imzalanıb. Layihələrə əsasən, tikiləcək stansiyalar regionda ən böyük günəş və külək elektrik stansiyaları olacaq. Ötən dövr ərzində tikintiyə başlanması ilə bağlı tərəflər arasında mütəmadi danışıqlar və müzakirələr aparılıb.

Prezident İlham Əliyev bu il aprelin 2-də imzaladığı sərəncamla qərara alıb ki, Nazirlər Kabineti qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə əlaqədar "İnvestisiya müqaviləsi"nin, "Enerji alqı-satqı müqaviləsi"nin, "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi"nin, "Torpaq icarə müqaviləsi"nin, "Birbaşa razılaşma"ların və "Müstəqil mühəndis müqaviləsi"nin imzalanması ilə bağlı zəruri tədbirlər görsün.

Aprelin 6-da isə Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sözügedən layihə üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb.

Xarici investisiya əsaslı bu layihə qlobal çağırışlara, ölkə iqtisadiyyatının dayanıqlı və şaxələndirilmiş inkişafı, eləcə də energetika sektorunda aparılan islahatların məqsədlərinə cavab verməsi aspektində qiymətləndirilir. Energetika naziri Pərviz Şahbazov bildirib ki, təxminən 200 milyon ABŞ dolları dəyərində günəş elektrik stansiyası üzrə bu müqavilələri imzalamaqla bərpaolunan enerji və karbon emissiyaları ilə bağlı hədəflərimizə daha bir addım yaxınlaşırıq. Bakı şəhəri və Abşeron rayonunda tikiləcək günəş elektrik stansiyası ildə təxminən 500 milyon kilovat/saat elektrik enerjisinin istehsalına, 110 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 200 min ton karbon emissiyasının azaldılmasına, yeni iş yerlərinin yaradılmasına, eyni zamanda, digər investorların yeni layihələrə cəlbinə yol açacaq.

BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, "Masdar" şirkətinin İdarə Heyətinin sədri Sultan Ahmed Al Jaber müqavilələr imzalanarkən videomüraciətlə deyib: "Azərbaycanda bərpaolunan enerji sahəsində ilk layihəmizə başlamaqdan qürur duyuruq. 230 MVt gücündə sənaye miqyaslı günəş enerjisi layihəsi ilə tərəfdaşlığımız yalnız təmiz enerji hədəfinə nail olmayacaq, həmçinin bilik, bacarıq və iş yerləri yaratmağa kömək edəcək".

BBƏ-nin enerji və infrastruktur naziri Süheyl Məhəmməd əl-Məzrui isə ölkəmizin bərpaolunan enerjinin inkişafı və istixana effekti yaradan qaz emissiyalarının 35 faiz azaldılması ilə bağlı strategiyasının icrasında iştiraklarına yaradılan imkanlara görə ölkəsi və "Masdar" şirkəti adından Prezident İlham Əliyevə təşəkkürünü çatdırıb.

Tikiləcək stansiyanın şəbəkəyə qoşulması və orada istehsal olunacaq elektrik enerjisinin satın alınması "Azərenerji" ASC tərəfindən həyata keçiriləcək. Stansiya "Cənub" yarımstansiyasına qoşulmaqla enerji sisteminə inteqrasiya olunacaq. Bunu isə "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev bildirib.

"Masdar" şirkətinin baş icraçı direktoru Mohamed Jameel Al Ramahi Azərbaycanın bərpaolunan enerji sahəsində qəti addımlarla irəlilədiyini və belə layihələrlə dünyada iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verdiyini vurğulayıb.

Bu mühüm sənədlərin imzalanması gələcəkdə Azərbaycanın "Masdar"la əməkdaşlığının davamlı olacağından, birlikdə daha çox layihələrin icra ediləcəyindən xəbər verir. Heç şübhəsiz ki, bu layihələr hər iki tərəf üçün faydalı olacaq .

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vətənpərvərlik azərbaycançılığın tərkib hissəsidir

Böyük tarixi şəxsiyyət Heydər Əliyev qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"



Bu kəlam hər bir azərbaycanlının milli özünüdərkidir. Məhz buna görə də Vətənini sevənlərin hamısı Ümummilli Liderimizin ideoloji irsini öyrənə-öyrənə həmişə Azərbaycan dövlətçiliyinin əsgəri olublar.

Əsgər olmaq ifadəsinin məna çalarları çoxdur. Onlardan biri də hər hansı ideyanı böyük məsuliyyətlə, sədaqətlə yerinə yetirməkdir. 1993-cü ilin iyununda xalq Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Dahi şəxsiyyət Azərbaycanın dövlətçiliyi naminə bu təkidli təklifi qəbul etdi. Onun hakimiyyətə qayıdışı ilə milli qarşıdurma aradan qaldırıldı, uğurlu xarici siyasətin nəticəsi olaraq Azərbaycan dünya dövlətləri sırasında öz layiqli yerini tutdu.

Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyası bütün xalqımızı birləşdirir, həmrəy edir. Prezident İlham Əliyev azərbaycançılıq ideologiyasını uğurla davam etdirir. Bu ideologiya cəmiyyətin bütün sahələrini əhatə edir. Müstəqil Azərbaycanın dövlətçiliyinin təməllərindən biri də azərbaycançılıq məfkurəsidir. Bu məfkurə minillik dövlətçilik tarixinə malik olan bir xalqın yaşama, var olma fəlsəfəsidir. Bu məfkurənin əsası vətənpərvərlikdir.

Birinci Qarabağ müharibəsində onlarla gənc Vətən naminə, dövlət naminə qəhrəmanlıqlar göstərmişdi. Etibar Hüseynov özünü düşmən tankının altına atdı. Mayor Rasim İbrahimov əsir düşməmək üçün özünü də, onu dörd tərəfdən əhatəyə almış düşmənləri də partladıb məhv edib. Tərtərdə Vəzir Orucov döyüşlərdən əvvəl erməni silahlılarının arxasına keçərək geri çəkilən düşməni pulemyotla qırdı. Mübariz İbrahimovun qəhrəmanlığından sonra təkcə ordumuzda deyil, cəmiyyətimizdə yeni qəhrəmanlıq mərhələsi yarandı: mübarizləşmə.

Ötən il ön xətdə xidmət edən bir əsgərin mətbuata dedikləri könlümə yaman yatmışdı: "Azərbaycanda milli-azadlıq hərəkatı genişlənəndə müstəqillik mübarizlərinin sırasında atam da olub. Mən yaşda olanda. Yəni mən və mənim yaşıdlarım həm də atalarımızın düşüncələriylə formalaşmışıq. Onların mübarizəsinin nəticəsi dövlət müstəqilliyimiz oldu. Atamgilin mübarizə apardığı illərdə səslənən "Ya qazi ol, ya şəhid" çağırışı bizə də aiddir. Onların əqidəsi bizim əqidəmizdir, o əqidə azərbaycançılıqdır, Azərbaycan dövlətçiliyidir, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır - torpaqlarımızın işğaldan azad edilməsidir". Bu fikirləri dövlətə, dövlətçiliyə sədaqət kimi oxumuşdum, bu vətənpərvərliyi seçicilərimlə qürurla bölüşmüşdüm.

2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın döyüş əmri ilə əks-hücum əməliyyatı kimi başlayan, Vətən müharibəsi kimi davam edən döyüşlərdə də oğullarımız əsl qəhrəmanlıq nümunəsi göstərdilər. Onlar torpaqlarımızın işğaldan azad edilməsi üçün heç nədən çəkinmədən döyüşdülər. Leytenant Elvin Şükürlü Mübariz İbrahimovun qəhrəmanlığını təkrarladı. Kəlbəcər istiqamətində gedən döyüşlərdə komandiri leytenant Elvin Şükürlü olan taqım da qətiyyətlə döyüşdü. Döyüş ara verəndə komandir nə düşünübsə, əsgərlərinə baxıb, onların baxışlarının işığında sonrakı döyüşü görüb. "Siz qalib gələcəksiniz!" deyib, heç kimə hiss etdirmədən, komandanlığa bildirmədən Mübariz İbrahimovun qəhrəmanlığının mahiyyətini təkrarlamağa - düşmənin ciddi müqavimət göstərən, döyüşçülərimizin qələbə yolunda maneə olan mövqeyinə gedib. Elvinin şəraitə görə atışmağa imkanı olmayıb. Qarşısına çıxan erməniylə əlbəyaxa olub, onu öldürüb. Sonra başqa ermənini, daha sonra üçüncünü, dördüncünü... Düşmənin səngərində şəhid olub. Düşmənin mövqeyinə, səngərinə belə gediş, belə döyüş vətənpərvərliyin təsdiqidir. Elvinin vətənpərvərliyi taqımın döyüş ruhunu, qisas hissini kükrədib.

Döyüşçülərdən birinin "Komandirimizin qisasını almadan Əzrayıla can verməRəm!" kəlmələrini hamısı döyüş andı bilib. Əsgərlərimiz döyüşü taqım komandirlərinin şəhidliyinin ruhu ilə davam etdirib. Bunlar hərbi anda sədaqət biçimli vətənpərvərlikdir.

Ulu Öndər Heydər Əliyev deyirdi ki, azərbaycançılıq Azərbaycanı qoruyub saxlamaq, dövlətçiliyi möhkəmlətmək vasitəsidir. Azərbaycan gəncliyi böyük tarixi şəxsiyyətin bu kəlamını öyüd-nəsihət kimi düşüncələrinə, düşüncələrindən ömürlərinə köçürüb. Bu köçürmə də vətənpərvərlikdir.

Vətən müharibəsinin ilk qələbələrini xalqımız torpaqlarımızın işğaldan qurtuluşunun başlanğıcı bildi. Hamı özünü ruhən döyüşənlərin sırasında gördü. Nənələr döyüşənlərə əlcək, corab, jaket toxuyurdu, analar döyüşənlərin ehtiyacı olmasa da onlara dolmalar, kotletlər, qutablar bişirib göndərirdi. Ağsaçlı bir ananın dediklərini heç zaman unutmaram: Onların hər biri mənim şəhid oğlumun qardaşıdı. Oğlum şəhid olmasaydı, indi özü də, oğlu da onların sırasında olardı. Ağsaçlı ananın dedikləri də vətənpərvərliyin təsdiqidir.

Xalqımız Prezident İlham Əliyevin çağırışına böyük vətənpərvərliklə əməl edəcək, işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərində əsl vətəndaş kimi iştirak edəcəklər. Vətənpərvərlik azərbaycançılığın tərkib hissəsidir.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Peyvəndlərin effektiv olduğu təsdiqini tapır

*Əvvəli 1-ci səh.*

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universitetinin klinikasının şöbə müdiri, tibb elmləri doktoru Nuran Abdullayev bildirib ki, "AstraZeneca" peyvəndinin həm virusa qarşı, həm də virusdan sağaldıqdan bir müddət sonra tətbiqi zamanı müsbət təsirləri ilə bağlı aparılan elmi tədqiqatlara nəzər saldıqda bir daha onun yüksək effektivliyinin şahidi oluruq: "Bu tədqiqatların nəticələrinə əsasən müəyyən olunub ki, virusa yoluxub sağalan, amma aylarla onları incidən, yüngül və qalıcı simptomlardan əziyyət çəkən insanlara da bu peyvəndlər çox müsbət təsir göstərir".

Azərbaycanlı alim onu da vurğulayıb ki, sözügedən tədqiqatlar "AstraZeneca" peyvəndi ilə aparılsa da eyni nəticələr fərqli tədqiqatlarda "Biontech/Pfizer" peyvəndi ilə də aparılıb ki, bu da bir daha peyvəndlərin müstəsna rolundan xəbər verir.

Peyvəndlərin insan həyatı üçün bu qədər həyati əhəmiyyət kəsb etməsinə baxmayaraq, bir çox ölkə üçün əhalinin koronavirusa qarşı peyvəndlənmədə istifadə olunan vaksinlərin tədarükü hələ də əlçatmaz olaraq qalır. Bu, vaksinlərin dövlətlər arasında qeyri-bərabərlik prinsipi ilə bölüşdürülməsinin nəticəsidir.

Xatırladaq ki, Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olaraq bu sahədə mühüm işlərə imza atıb. Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprelində Türk Şurasının, mayında Qoşulmama Hərəkatının Zirvə toplantıları, dekabrında isə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Bu il martın 23-də Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə qəbul edilib.

Azərbaycan dövləti qısa zamanda ölkəmizə vaksin gətirilməsini təmin edib və artıq yanvar ayının 18-dən etibarən əhalinin peyvəndlənməsinə başlanılıb.

Respublikamızın bütün bölgələrində uğurla həyata keçirilən vaksinasiya prosesi və əhalinin peyvəndlənmədə həvəslə iştirakı bu sayı hər ötən gün sürətlə artırır.

Görünən odur ki, əhalinin böyük bir hissəsini vaksinasiya edərək virusun yayılma dinamikasını və yoluxan şəxslərin ağırlaşmalarını minimuma endirmək məqsədi tez bir zamanda tam reallaşacaq.

Amma elə bu həssas məqamda arxayınlaşmamalı və virusa qarşı daha diqqətli olmalıyıq. Mütəxəssislər də dəfələrlə xəbərdarlıq edirlər ki, peyvənd vurdurmuş şəxslər də maskadan istifadə etməli, sosial məsafə saxlamalı, gigiyena qaydalarını unutmamalıdırlar. Çünki peyvənd olunan şəxs xəstə ilə təmasda olacaqsa, virusa yoluxması mümkündür.

Peyvənd olunmamış şəxslər də mütləq pandemiya şərtlərinə əməl etməlidirlər. Kütləvi yerlərdən uzaq durmalı, gizlin keçirilən yas, toy, nişan, ad günü kimi məclislərə qatılmamalı, sosial məsuliyyət nümayiş etdirərək bu kimi tədbirlər barədə aidiyyəti qurumlara xəbər verməlidirlər. Hazırda bütün müsəlman dünyasında olduğu kimi, Azərbaycanda da müqəddəs Ramazan günləri yaşanır. Amma pandemiyanın tələblərinə uyğun olaraq bütün sahələrdə olduğu kimi, dini inanclarımızla bağlı adət və ənənələrimizin icrasında da müəyyən dəyişikliklər etməyə məcburuq. Sağlamlığımız naminə kütləvi iftar mərasimləri təşkil etməməli, eyni zamanda belə məclislərə də qatılmamalıyıq.

Əminik ki, müqəddəs dəyərlərə hörmətlə yanaşan, nəcib keyfiyyətləri ilə seçilən xalqımız öz həmrəyliyi sayəsində hazırkı pandemiya çətinliyini də geridə qoyacaq və dini ayinlərini də tezliklə əvvəlki qaydada icra edəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***







# ABŞ və NATO qoşunlarını Əfqanıstandan çıxarır

## Ölkədə sabitliyin pozulacağı ehtimal olunur



ABŞ Prezidenti Co Bayden Əfqanıstanda yerləşən Amerika hərbi kontingentinin vətənə qayıdacağını elan etmişdir. Qoşunların çıxarılması gələn ayın 1-dən etibarən başlayacaq və bu il sentyabrın 11-dək - 2001-ci il sentyabr hadisələrinin 20-ci ildönümünədək başa çatacaq. Bayden qeyd etmişdir ki, hərbi kontingentin çıxarılması prosesi nizamlı şəkildə və hazırda Əfqanıstanda ABŞ-dan daha çox qoşun yerləşdirmiş müttəfiqlərlə tam əlaqələndirmə şəraitində həyata keçiriləcək.

ABŞ lideri vurğulamışdır ki, Vaşinqton Əfqanıstanda qarşıya qoyduğu bütün vəzifələri yerinə yetirməyə nail olmuşdur: "ABŞ-ın ən uzun müharibəsinə son qoymağın vaxtı gəlib çatmışdır, əsgərlərimizi evə qaytarmaq vaxtıdır".

Bayden 10 ildən çox əvvəl ABŞ-ın 44-cü Prezidenti Barak Obamanın xahişi ilə Əfqanıstana səfər etməsindən və o vaxt bu ölkədə yaranmış vəziyyətdən də bəhs etmişdir: "Bu səfər zamanı gördüklərim inamımı gücləndirdi ki, yalnız Əfqanıstan xalqı ölkəyə rəhbərlik etmək hüququna malikdir, Amerika silahlı qüvvələri sabit əfqan hökumətini nə yarada, nə də saxlaya bilər".

Bununla yanaşı, Bayden söz vermişdir ki, ABŞ Əfqanıstan hökumətini müxtəlif sahələrdə, o cümlədən silahlı münaqişənin siyasi vasitələrlə tənzimlənməsi sahəsində dəstəkləməkdə davam edəcək. O həmçinin bir sıra ölkələrdən Əfqanıstana daha fəal kömək göstərməsini xahiş edəcək: "Bölgə ölkələrindən Əfqanıstanı dəstəkləmək üçün daha çox səy göstərməyi xahiş edəcəyik. Bu xüsusilə Pakistana, eyni zamanda Rusiya, Çin, Hindistan və Türkiyəyə aiddir".

Digər tərəfdən, Vaşinqton qarşıdakı bir neçə ayda ABŞ-ın Əfqanıstanda sonrakı diplomatik mövcudluğunun necə görünməsini izləyəcək. Xüsusilə Amerika diplomatlarının təhlükəsizliyinin təmin edilməsi tədbirləri barədə razılaşma əldə etmək lazım gələcək. Bayden belə bir məqamı da nəzərə çarpdırmışdır ki, Əfqanıstanda ABŞ-ın güclü hərbi mövcudluğu olmadan diplomatiyanın uğur qazana bilməyəcəyi barədə deyilənlər son vaxtlar effektivliyini sübut etməmişdir.

Eyni zamanda ABŞ Prezidenti "Taliban" radikal hərəkatını qoşunların çıxarılması prosesinin gedişində Amerika əsgərlərinə hücum etməmək barədə xəbərdarlıq etmişdir. O əlavə etmişdir ki, belə hücumlar olarsa, ABŞ özünü və tərəfdaşlarını bütün mümkün vasitələrlə müdafiə edəcək.

Əldə olan məlumata görə, ABŞ qoşunlarının Əfqanıstandan tamamilə çıxarmaq qərarı asanlıqla qəbul olunmamışdır. Prezident Bayden belə bir qərar qəbul edərkən Pentaqonun mövqeyini dəf etməli olmuşdur. "Politico" qəzeti keçmiş və hazırkı amerikalı məmurlara istinadən xəbər verir ki, yüksək vəzifəli hərbçilər Əfqanıstanda ABŞ-ın kiçik bir kontingentini, əsasən, xüsusi təyinatlı qüvvələri və hərbi müşavirləri saxlamağa tərəfdar çıxırdılar. Qəzet Əfqanıstanda Amerikanın hərbi mövcudluğunun qorunub saxlanmasını dəstəkləyənlər arasında ABŞ Silahlı Qüvvələri Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Mark Millinin və Əfqanıstandakı ABŞ qoşunlarının komandirlərinin, həmçinin Mərkəzi Komandanlığın və Xüsusi Əməliyyatların Komandanlığının adlarını çəkir. Hərbçilər hesab edirdilər ki, "Taliban"ın qabağını almaq və Əfqanıstanın terrorçu sığınacağına çevrilməsinə imkan verməmək üçün ölkədə bir neçə min əsgərdən ibarət kontingent saxlamaq zəruridir.

ABŞ-ın ardınca NATO-un üzvü olan digər dövlətlər də gələn ayın 1-dən etibarən qoşunlarını Əfqanıstandan çıxarmaq qərarına gəlmişdilər. Şimali Atlantika Alyansının müvafiq bəyanatında deyilir ki, qoşunların çıxarılmasını bir neçə ay ərzində başa çatdırmaq planlaşdırılır. O vaxta qədər NATO "Taliban" hərəkatının hər hansı hücumuna qətiyyətlə reaksiya vermək niyyətindədir.

Bəyanatda qeyd olunur ki, müttəfiqlər 2001-ci ildə NATO-nun tarixində ilk dəfə olaraq Vaşinqton Müqaviləsinin 5-ci maddəsini tətbiq edərək "əl-Qaidə"yə və 2001-ci il sentyabrın 11-də ABŞ-da terror hücumlarını təşkil edənlərə qarşı durmaq, həmçinin terrorçuların Əfqanıstanı etibarlı sığınacağa çevirməsinə imkan verməmək üçün qoşunlarını bu ölkəyə göndərmişlər. NATO ölkələri Əfqanıstan hökumətini və talibləri ABŞ - "Taliban" sazişi və ABŞ-Əfqanıstan birgə bəyanatı ilə başlamış sülh prosesinə münasibətdə götürdükləri öhdəliklərinə əməl etməyə çağırmışdır.

Beləliklə, qoşunların çıxarılması ilə ABŞ başda olmaqla NATO ölkələrinin 20 ilə yaxındır davam edən missiyası başa çatacaq. Şimali Atlantika Alyansının hərbi kampaniyası həm NATO üzrə müttəfiqlərə, həm də əfqan xalqına ucuz başa gəlməmişdir. ABŞ mediasının verdiyi məlumata görə, kampaniyanın gedişində Əfqanıstanda 2,4 mindən çox amerikalı hərbçi həlak olmuş, döyüş əməliyyatlarına trilyonlarla dollar pul xərclənmişdir. Əfqanıstanın 100 min sakini öldürülmüşdür. ABŞ və müttəfiqlərinin Əfqanıstanda əsas rəqibi vaxtilə ölkəni idarə etmiş "Taliban" hərəkatı idi.

Lakin xarici qoşunların Əfqanıstandan çıxarılması heç də ölkənin qarşılaşdığı problemlərin həll olunacağı mənasına gəlmir. Məsələ burasındadır ki, ölkədə əsas söz sahibi hökumət yox, "Taliban" hərəkatıdır: taliblər ölkə ərazisinin əksəriyyətinə nəzarət edirlər. Üstəlik, son illər başqa bir ekstremist təşkilatın - İŞİD-in fəallaşması diqqəti cəlb edir. Belə bir şəraitdə Əfqanıstanda sabitliyi qoruyub saxlamaq çətin görünür. Xüsusilə "Taliban" daxili münaqişənin dinc yolla həllinə elə də maraq göstərmir. Taliblər Əfqanıstana dair cari ayın axırlarında İstanbulda keçirilməsi nəzərdə tutulan beynəlxalq konfransı boykot etmişdir. Hərəkatın nümayəndəsi bildirmişdir ki, "Taliban" bütün xarici qüvvələr Əfqanıstandan çıxanadək ölkə ilə bağlı heç bir beynəlxalq foruma qatılmayacaq. Bütün bu səbəblərə görə müşahidəçilər hesab edirlər ki, NATO qüvvələri Əfqanıstanı tərk edəndən sonra ölkənin yenidən silahlı qarşıdurma meydanına çevrilməsi ehtimalı böyükdür.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# İndi isə memar qazimizi böyük quruculuq işləri gözləyir



...O, dayısını heç görməmişdi. Amma anasının hər dəfə "can qardaşım" deyib ağlaması balaca Abdullanın körpə qəlbinə bir nisgil toxumu səpmişdi. Dayısını tanımaq, onun kim olduğunu bilmək istəyirdi. "Nə üçün anam hər dəfə ondan söz düşəndə bu qədər kədərlənir?" deyə düşünürdü.

Bu suallara cavab axtara-axtara böyüdü Abdulla. Özünü dərk edəndə bildi ki, dayısı Ayaz Musayev I Qarabağ müharibəsinin qəhrəmanlarından, şəhidlərindən biri imiş. Onu da öyrəndi ki, Ayaz dayısı Qarabağa ilk gedən könüllülərdən olub. Bir çox döyüşlərdə igidliklə vuruşub. 1993-cü ilin mart ayında Ağdam istiqamətində gedən döyüşlərin birində isə şəhid olub. Dayısının oxuduğu Qax rayonu Əmircan kənd tam orta məktəbi indi şəhid Ayaz Musayevin adını daşıyır. Hər dəfə kəndə, nənəsigilə gedəndə yolunu buradan salan Abdullanın qəlbində özünün də anlamadığı bir təlatüm baş verirdi: "Kaş mən də dayım kimi bu torpaq uğrunda döyüşə, şəhidlərimizin, qaçqın-köçkünlərimizin qisasını ala biləydim".

...Abdulla Tağıyev Qax şəhər 4 saylı tam orta məktəbində təhsilini başa vurub Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsinə daxil oldu. Ali təhsilini fərqlənmə diplomu ilə bitirib 2017-ci ilin iyun ayında hərbi xidmətə yollandı. Xidmətini də ləyaqətlə yerinə yetirdi. Gənc memarın ilk iş yeri isə Qax Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsi oldu.

...Ermənilərin tez-tez sərhədlərimizdə törətdikləri təxribatlar, xalqımızı aşağılayan təhdidləri Azərbaycan gənclərinin hiddətinə səbəb olur və onlar Ali Baş Komandanın əmrini gözləyirdilər. Doğru vaxtı və zamanı gözləyən Prezidentimiz ölkədə qismən səfərbərlik elan edən kimi minlərlə gəncimiz könüllü olaraq cəbhəyə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin ( SHXÇDX) yerli şöbələrinə üz tutdu. Abdulla da heç fikirləşmədən bu çağırışa qoşuldu və SHXÇDX-nin Qax rayon şöbəsindən cəbhəyə yola düşdü.

Sağollaşıb evdən çıxanda dönüb anasına baxdı. Gözlərinə inanmadı. Anası ağlamırdı. Fəxrlə, qürurla oğlunu uğurlayırdı. Yadına anasının həmişə söylədiyi bu sözlər düşdü: "Sən də dayın kimi igid olacaqsan!"

Beləliklə, gənc memarın manqa komandiri kimi cəbhə həyatı başlanır. Sentyabrın 27-də Murov dağında, 3500 metr yüksəklikdə yerləşən postlarımızdan birində baş atıcı kimi döyüşdə iştirak edir. Müharibənin ilk günündə ermənilər postlarımızdan birini vururlar. Həmin postdakı əsgərlərimiz ərzaqsız qalır. Arxa cəbhə ilə əlaqə isə kəsilir. Abdullanın olduğu postun əsgərləri öz ərzaq payını döyüş dostları ilə bölüşürlər. Tərslikdən içməli su da qurtarır. Düşmən snayperi aşağı enməyə imkan vermir. Həmin gün Murova ilin ilk qarının yağması Allahın möcüzəsi olur. Əsgərlərimiz qarı əridib su kimi içirlər.

Kəlbəcərin Lev kəndi ermənilərin əlində idi. Düşmən bütün təminatlarını (ərzaq və silahı) bu kənddə yerləşdirmişdi. Müharibənin elə ilk günündə artilleriyamız orada ermənilərə məxsus arxa cəbhəni darmadağın etdi. Daha sonra canavar dişinə bənzəyən qayanın arxasındakı iki erməni postu da məhv edildi.

Abdullagilin postu "Ömər aşırımı" adlanan postla üzbəüz dayanmışdı. Ermənilər burada güclü istehkam qurmuşdu. Üstəlik, ərazi coğrafi cəhətdən də çox çətin idi. Kəşfiyyat qrupu heç cür oraya çata bilmirdi. Döyüşlər davam etsə də, komandanlığın əmri ilə döyüş piyada hərəkəti məhdudlaşdırılmışdı. Əks təqdirdə daha çox itki verilə bilərdi. Ona görə də postlardakı əsgərlərimiz mövqelərini möhkəmləndirirdilər.

Abdullagilin postu ən son nöqtədə yerləşirdi. Oktyabrın 19-da onlar ermənilərin postunu vururlar. Yarım saatdan sonra isə ermənilər buna cavab verirlər. Düz 30-a qədər minamyot atırlar. Qəlpələrdən biri Abdullanın əlindəki avtomatın qundağını qoparır. Hərbi hissə ilə rabitə əlaqəsi kəsilir. Mərkəzə xəbər verilir ki, post vurulub, əsgərlərimiz şəhid olublar. Xoşbəxtlikdən manqa üzvlərinin hamısı sağ-salamat idi. Onlar qayalıqları özlərinə sipər etmişdilər. Kəlbəcər azad olunduqdan sonra postun şəxsi heyəti aşağıda yerləşən hərbi hissəyə qayıdır. Hamı sevinir.

Dekabrın 31-də, Yeni il axşamı tərxis olunan Abdulla Tağıyevin cəbhə xatirələrini həyəcansız dinləmək mümkün deyil:

- Müharibə ölüm kabusudur. Doğrusu, əvvəllər içimdə nə isə bir ağırlıq vardı. Amma elə ilk gündən bu hiss yox oldu. Hər şey, ölümün özü də adiləşdi gözümdə. Qələbə hər birimizin qanı-canı bahasına qazanıldı. Şəhid olan döyüş dostlarımı unuda bilmərəm. Biz birlikdə ölümə meydan oxuduq. Tabur komandirimiz mayor Rahib Babayevi, leytenant Göyüşovu (o, iki gün idi bizim posta gəlmişdi, adını öyrənməyə belə imkanımız olmamışdı) ömrüm boyu xatırlayacam. Onlar biz şəhid olmayaq deyə özlərini düşmən gülləsinə sipər etdilər. Allah rəhmət eləsin! 44 günlük müharibədə çox şeyi öyrəndim: hər cür çətinliyə dözməyi, ölümün gözünə dik baxmağı, bu torpaq üçün ölməyi bacarmağı, dostun, yoldaşın üçün sinəni sipər etməyi. Həyatımın ən qiymətli anlarını bu 44 gündə yaşadım. Yəqin etdim ki, Vətən uğrunda ölmək, şəhid olmaq ən uca, ən şərəfli məqamdır. Bu istək, bu arzu Milli Ordumuzun generalından əsgərinədək hər kəsdə bütövləşmişdi. Qələbə asan qazanılmayıb. Şəhidlərimiz, yaralılarımız da var. Sağ-salamat qayıtmağım isə Allahın möcüzəsidir. Ən azı 7-8 dəfə ölümlə burun-buruna gəlmişəm. Günlərlə yuxusuz, əlimizdə silah dayanırdıq. Lakin heç birimiz şikayətlənmirdik. Hətta zarafatımızdan da qalmırdıq. Bu çətin günlərdə qazandığımız dostluğu ömrümüz boyu davam etdirməyə and içmişik. Döyüş dostlarımın çoxu rayonumuzdan olub: Şamil, Cahid, Murad, Ruslan və başqaları. Hərəsi bir igiddir. Bizim dostluğumuz qanlı-qadalı günlərin sınağından çıxdı. Vətənimiz uğrunda, Böyük Qələbəmiz yolunda vuruşduğumuz günlərin...

Dövlətimiz Qələbədə payı olan hər kəsi dəyərləndirdi. Həmyerlimiz, Vətən müharibəsinin qazisi Abdulla Tağıyev də Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Kəlbəcər uğrunda" və "Döyüş iştirakçısı" medalları ilə təltif olunub.

İndi gənc memarı Azərbaycanda başlanan yeni dövrün böyük quruculuq işləri gözləyir. Qəhrəman qazimiz, bu yolda uğurların bol olsun!

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru***

Jurnalist araşdırması

# 1. Suya qənaət həyatın qarşımıza qoyduğu vacib tələbdir

Bu bir həqiqətdir ki, uzun illər Qarabağ münaqişəsi hökm sürməsəydi, ölkəmiz bundan qat-qat çox inkişaf edərdi. Torpaqlarımızın 20 faizinin işğal altında qalması ölkəmiz üçün bir çox siyasi, iqtisadi və sosial maneələr yaratmışdı. Onlardan biri də düşmənin Azərbaycanın böyük həcmdə su ehtiyatlarına nəzarət etməsi idi.



Vətən müharibəsində qazandığımız zəfər isə bu gün su mənbələrimizdən və torpaqlarımızdan səmərəli istifadə etməyə imkan yaradır. Prezident İlham Əliyev bu barədə Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edərkən demişdir: "Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini o cümlədən bu sahədə də aparırdı və bizə qarşı ekoloji terror təşkil etmişdir... Bununla paralel olaraq, azad edilmiş torpaqlarımızda bizim böyük çay resurslarımız var. Biz bundan da məhrum idik".

Bildiyimiz kimi, hazırda dünyada su təhlükəsizliyi problemi mövcuddur və bu, bütün ölkələri narahat edir. Elə bu səbəbdən ölkəmizdə də su təhlükəsizliyinin təminatına xüsusi diqqət yetirilir və vaxtında lazımi tədbirlər görülür. Məsələn, dövlət başçısının qərarı ilə Taxtakörpü su anbarı tikilməsəydi, indi Bakı şəhəri su çatışmazlığından əziyyət çəkərdi. Çünki iqlim dəyişikliyi, xüsusilə son dövrlər baş verən quraqlıqlar nəticəsində paytaxtı su ilə təmin edən əsas mənbədə - Ceyranbatan su anbarında suyun səviyyəsi ildənilə aşağı düşürdü. Vaxtında görülən tədbir sayəsində indi Bakını bu sarıdan heç bir təhlükə gözləmir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda su təhlükəsizliyinin təmin edilməsinə daim diqqətlə yanaşılır. Məhz dövlət başçısının təşəbbüsü ilə Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilib, bir neçə orta və kiçik su anbarları istismara verilib, həmin anbarlarda yığılan suyun əkin sahələrinə çatdırılması üçün min kilometrlərlə su kanalları və kollektor-drenaj şəbəkəsi istifadəyə verilib. Bunların sayəsində 25 rayonda 100 min hektar sahənin suvarılması təmin edilib.

Onu da qeyd edək ki, ölkədə həyata keçirilən meliorasiya tədbirləri nəticəsində hazırda 1 milyon 376 min hektar sahədə suvarma suyundan istifadə olunur. Bu da 136 min hektar pambıq, 518 min hektar taxıl, 3 min hektara yaxın tütün, 410 min hektar yem bitkiləri, 65 min hektar bostan-tərəvəz və digər bitkilərin orta hesabla 2,5 dəfə suvarılması deməkdir.

Bununla belə, ölkəmizdə sudan səmərəli istifadənin vəziyyəti hələ də qənaətbəxş deyil. Dövlət başçısı bu barədə demişdir: "Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir". Bu fikirdən də aydın görünür ki, bizdə insan faktorundan qaynaqlanan su itkilərinin həcmi hələ də yüksəkdir.

Başqa bir neqativ hal isə suyun bölüşdürülməsindəki ədalətsizlikdir. Bu işdə mərkəzi və yerli icra orqanları məsuliyyətsizliyə yol verir, bəzi sahibkarlar bundan istifadə edərək digərlərinin sudan istifadəsinə imkan yaratmır. Üstəlik, su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılır ki, bu da fermerlərin sudan səmərəli istifadəsini məhdudlaşdırır.

Dövlət başçısının ölkəmizin su təhlükəsizliyinə xüsusi əhəmiyyət verməsi səbəbsiz deyil. Azərbaycan su ehtiyatları məhdud olan ölkələrdəndir. Doğrudur, ölkədə Xəzər dənizi hövzəsinə daxil olan 8350 çay var. Lakin onların çoxunun uzunluğu 10 kilometrdən azdır. Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əsas su arteriyası Kür çayıdır. Böyüklüyünə və sululuğuna görə ölkənin ikinci çayı isə Arazdır. Daxili çaylarımıza gəldikdə ayrı-ayrı bölgələr üzrə qeyri-bərabər paylanan həmin çayların axınının əsas hissəsi yaz dövründə yağışlardan və qarın əriməsindən qaynaqlanır. Belə çayların əksəriyyəti daşqın və sel sularından əmələ gəldiyi üçün onlardan səmərəli istifadə etmək mümkün olmur və bu sular dənizə axır. İlin isti aylarında isə kiçik çayların bir çoxunun suyu quruyur.

Bunlardan əlavə, arid zonada yerləşdiyi üçün Azərbaycanın su ehtiyatları olduqca məhduddur. Konkretləşdirsək, yerüstü su ehtiyatlarımız 32,2 milyard kubmetrdir ki, quraqlıq illərində bu, 22,6 milyard kubmetrə qədər azalır. Yeraltı su ehtiyatları isə 5,2 milyard kubmetrdir. Onu da qeyd edək ki, Azərbaycanın yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqladığı son məlumata görə, Azərbaycanın yerli səth su ehtiyatları 1960-1990-cı illərdə 10 kubkilometrə yaxın idisə, bu rəqəm son illər azalaraq 9 kubkilometrə düşüb. İçməli su tələbatını, eyni zamanda suvarma və digər sahələrdə sudan istifadəni təmin etmək üçün Azərbaycan yerli çaylarla yanaşı, transsərhəd çaylar olan Kür, Araz, Qanıx, Samur, Astara və s. çayların su ehtiyatlarından istifadə edir. İl ərzində orta hesabla götürülən suyun miqdarı 12,5 kubkilometrdir və gələcəkdə əhalinin sayının və suvarılan ərazinin artması ilə bağlı bu rəqəm daha yüksək ola bilər. Son illər iqlim dəyişmələrinin təsiri və qonşu dövlətlər tərəfindən istifadə nəticəsində transsərhəd çaylarının su ehtiyatları da azalıb. 1960-1990-cı illərlə müqayisədə son zamanlar Kür, Qanıx və Araz çaylarının su ehtiyatları azalır və nəticədə ölkəmizin ərazisinə bu çaylarla ildə cəmi 12-15 kubkilometr su daxil olur.

Məlumdur ki, XX əsr elm və texnikanın inkişafına görə dünyanın qızıl dövrü adlandırılır. Təəssüf ki, həmin inkişafdan istifadə edən insanlar təbiəti həddindən çox istismara məruz qoyublar. Ümumiyyətlə, təbiətə vurulan zərbə indi müxtəlif formalarda qayıdıb insanların özlərinə dəyir. Alimlər sübut ediblər ki, iqlim dəyişikliyi, daha doğrusu, qlobal istiləşmə insan fəaliyyətinin nəticəsidir və bu gün biz onun bədəlini yaşayırıq.

Və belə bədəllərdən biri yox, bəlkə də birincisi su çatışmazlığıdır. İndinin özündə bu, bəşəriyyət üçün böyük bəlaya çevrilib. Qarşıdakı illərdə isə su qıtlığı daha böyük faciələrə səbəb olacaq. BMT-nin son araşdırmalarına görə, 30 ildən sonra dünya əhalisinin yarısı susuz qalacaq. Yəni 2050-ci ilədək dünyada 3,5-4,4 milyard insan içməli su çatışmazlığı problemindən əziyyət çəkəcək. Həmin hesabatda o da qeyd edilir ki, içməli su çatışmazlığından əziyyət çəkəcək insanların 1 milyardı böyük şəhərlərdə yaşayanlar olacaq. Bu günün özündə dünyada 2 milyarddan çox adam içməli su çatışmazlığından əziyyət çəkir və ya ümumiyyətlə, içməli su ehtiyatlarından məhrumdur. Məsələn, Efiopiyada bu cür insanların sayı 61 milyondur. Hindistanda isə 163 milyondan çox adam içməli su nədir, bilmir. Hesabatda həmçinin bildirilir ki, yaxın onilliklər ərzində enerji sektoru tərəfindən su ehtiyatlarından istifadə də xeyli artacaq.

Belə olan halda içməli suyun dünyada bahalı əmtəəyə çevrilməsi təbiidir. Hazırda Avropanın inkişaf etmiş Almaniya, Niderland, Danimarka kimi ölkələri İsveçdən içməli suyu satın alır. Uzaq Şərqdə də vəziyyət ürəkaçan deyil. Belə ki, Yaponiyanın mağazalarında Norveçdən gətirilən su satılır. 4 milyon nəfər əhalisi olan Honkonq isə əhalini su ilə Çindən çəkilən kəmər vasitəsilə təmin edir. Səudiyyə Ərəbistanı da Filippindən, Sinqapur Malayziyadan tankerlərlə içməli su daşıyır.

Ən acınacaqlısı isə odur ki, şirin su ehtiyatları ümumi su ehtiyatlarının 2,5 faizini təşkil edir və bunun da istifadəyə yararlılıq dərəcəsi 0,3 faizdir. BMT-nin su resurslarının qiymətləndirilməsi üzrə ümumdünya proqramının məlumatına görə, 2010-cu ildə dünyada şirin su qıtlığı artaraq 225-230 milyard kubmetr olub, 2025-ci ildə isə bu rəqəmin 6-9 dəfə artaraq 1,3-2 trilyon kubmetrə çatmaq ehtimalı var.

Bunlar da hələ hamısı deyil. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər gün dünyada diareya xəstəliyindən 5 min uşaq ölür, yəni hər 17 saniyədə bir uşaq həyatını itirir. Belə hal təkcə inkişafdan geri qalan ölkələrə aid deyil. İnkişaf etmiş ölkələrdə də xəstəliklərin 80 faizi içməli suyun keyfiyyəti ilə bağlıdır. Bu ölkələrdə hər il 3 milyon insan suyun keyfiyyətsizliyi ilə bağlı yaranan xəstəliklərdən dünyasını dəyişir. Dünyada ümumilikdə 500 milyondan artıq insan içməli su ehtiyacından müxtəlif xəstəliklərə düçar olur. Məlumdur ki, bəşəriyyətin içindən keçən iki dünya müharibəsinin başlanmasının əsas səbəbi ərazi iddiaları olub. İndi dünya alimləri belə qənaətə gəliblər ki, üçüncü dünya müharibəsi içməli su ehtiyatlarının əldə edilməsi uğrunda başlaya bilər. Bu isə təsadüfi deyil. Tarixdən duz, mis, kömür, qızıl, almaz, uran, neft, qaz və digər sərvətlər uğrunda müharibələrin baş verdiyi məlumdur. İndinin özündə Suriya, İraq, Liviya və Yaxın Şərqdə neftlə zəngin digər ölkələrdə tökülən qanların səbəbi "qara qızıl"dır.

Bu gün isə dünyanın ən qlobal problemi su ilə, xüsusilə içməli su mənbələri ilə bağlıdır. Artıq Orta Asiyada, Yaxın Şərqdə su ehtiyatları üzündən bir sıra dövlətlər arasında açıq və ya gizli "müharibə"lər gedir. Su çatışmazlığı daha kəskin xarakter aldıqda belə müharibələrin açıq və şiddətli olması şübhə doğurmur. Çünki susuz həyat yoxdur. Həyat uğrunda müharibə və ya mübarizə aparmaq isə təbiidir.

Yeri gəlmişkən, məlumdur ki, dünyada ən çox şirin su ehtiyatı Rusiya ərazisindəki Baykal gölündədir. Bir çox Amerika siyasətçiləri Rusiyanın bu sərvətə təkbaşına sahib olmağını düzgün hesab etmirlər və bu səbəbdən Baykalın su ehtiyatından bəşəriyyətin bərabər istifadə etməsi fikrini irəli sürürlər. Sözsüz ki, belə təkliflər Rusiya tərəfindən birmənalı qarşılanmır. Bu ölkə nəyə sahib olduğunu çox yaxşı bilir: gələcəkdə dünya demək olar ki, Baykalın ümidinə qalacaq. Elə buna görə də amerikalı siyasətçilər indidən Rusiyaya qısqanclıqla yanaşırlar.

Hər damlasında həyat olan suyun qədrini bilməliyik, ondan maksimum qənaətlə istifadə etməliyik. Bu səbəbdən ölkəmizdə su təhlükəsizliyinin təminatı sayəsində görülən mühüm işlərə vətəndaş dəstəyi verməliyik. Vətəndaş dəstəyi isə ilk növbədə sudan qənaətlə istifadə etməkdir. Bu, həyatın bəlkə də qarşımıza qoyduğu ən vacib tələbdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Heyvandarlığın inkişafı elmi əsaslara söykənir

## Alimlərlə fermerlərin əməkdaşlığı faydasız qalmır

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Azərbaycanda da əhalinin ərzaqla etibarlı təminatı məqsədilə bir çox tədbirlər həyata keçirilir. Ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramlarının icrası ilə iqtisadiyyatın əsas sahəsi olan kənd təsərrüfatının sürətli inkişafı təmin edilir.









Qeyd etmək lazımdır ki, aqrar sahənin sürətli inkişafının təmin edilməsində əsas prioritetlərdən biri də onun elmə əsaslandırılmasıdır. Bu baxımdan Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun üzərinə böyük vəzifələr düşür. Lakin uzun illər institutda durğunluq hökm sürmüş, bu elmi müəssisə ölkənin aqrar sektorunda gedən proseslərdən geridə qalmışdı. Bununla bağlı 2018-ci ildə "Azərbaycan" qəzetində geniş məqalə də dərc olunmuşdu. Qəzetin tənqidi çıxışından sonra institutda kadr dəyişikliyi aparılmış, onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün bir sıra məqsədyönlü işlər həyata keçirimişdir.

Mövcud vəziyyətlə maraqlanmaq üçün bu günlərdə yenidən institutda olduq. İnstitutun direktoru Mahir Hacıyev bildirdi ki, qəzetin tənqidi çıxışından sonra "Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun 2018-2020-ci illər üçün strateji inkişaf planı" təsdiq edilmiş, həmin plana uyğun işlər tamamilə yenidən qurulmuşdur.

Hazırda institutda 4 şöbə və 6 laboratoriya fəaliyyət göstərir. Bütün laboratoriyalar müasir avadanlıqlarla təchiz olunmuşdur. M.Hacıyev dedi ki, qarşıda duran vacib məsələlərdən biri institutun genetik mərkəzə çevrilməsinə nail olmaqdır. Bunun üçün hazırda seleksiya-damazlıq işlərində elmi tədqiqatların səviyyəsinin yüksəldilməsinə və səmərəliliyinin artırılmasına nail olmaq, eləcə də elmi tədqiqatların aparılmasında müasir biotexnoloji üsullardan (süni mayalanma, gen mühəndisliyi və embrion köçürmə) istifadə etməklə yüksək məhsuldar damazlıq heyvanların yaradılması istiqamətində işlər aparılır.

Həmçinin öyrəndik ki, institutun nəzdində qaramal, qoyun və quş cinslərinin saxlanması üçün genetik kolleksiya fermalarının yaradılması davam edir. Bu isə elmi tədqiqat işlərinin aparılması üçün geniş imkanlar açır. Artıq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ölkəyə gətirilən yüksək məhsuldar qoyun cinsləri ilə yanaşı, yerli cinslərdən olan "Qaradolaq", "Qala", "Bozax" və "Avasi Bozağ"ın mələzlərindən ibarət seleksiya ferması yaradılmışdır. Bundan əlavə, qaramalın cins tərkibinin yaxşılaşdırılması üçün institutun yardımçı təsərrüfatında olan "Holşten Friz", "Şvis Braun", "Aberdin Anqus", "Vagyu" və "Simmental" cinslərinin kompleks bioloji xüsusiyyətləri öyrənilmişdir.

İnstitutun qarşısında duran əsas vəzifələrdən biri də yeni ətlik və ətlik-südlük qaramal hibridlərinin yaradılmasıdır. Artıq bu istiqamətdə də işlərə başlanılmışdır. Yüksək nəticələr də var. Belə ki, Süni Mayalanma Mərkəzinin əldə etdiyi toxumlar institutun yardımçı təcrübə təsərrüfatında yüksək məhsuldar cinslərin yetişdirilməsinə imkan vermişdir. Ümumiyyətlə, aparılan elmi araşdırmalar nəticəsində son 3 ildə ətlik və südlük istiqamətli iribuynuzlu mal-qara mələzləri alınmışdır. Bütün bu işlərin daha səmərəli həyata keçirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə institutun yardımçı təcrübə təsərrüfatının ərazisində 100 başlıq müasir maldarlıq kompleksi tikilir.

Direktor onu da bildirdi ki, ölkəyə gətirilən yüksək məhsuldar qoyun və keçi cinslərinin yetişdirilməsi və onların yerli populyasiyalarla çarpazlaşdırılması nəticəsində alınan mələzlərin damazlıq və məhsuldarlıq keyfiyyətləri öyrənilir. Onu da nəzərə çatdıraq ki, gətirilən yüksək məhsuldar qoyun cinslərinin yetişdirilməsi, adaptasiyası, onların ana qoyunlarının yerli qoyun cinsləri ilə çarpazlaşdırılması nəticəsində alınan mələzlərin damazlıq və məhsuldarlıq keyfiyyətlərinin yüksəldilməsi ilk dəfə bu institutda aparılmışdır.

İnstitutda aparılan elmi-tədqiqat işlərində xarici alimlərin də təcrübəsindən geniş istifadə edilir. Əməkdaşlıq çərçivəsində bağlanmış müqaviləyə əsasən Türkiyənin Qars Qafqaz Universitetinin iki əməkdaşı - professor Yavuz Öztürklər və professor Cihan Kaçar, eləcə də Aksaray Universitetinin əməkdaşı, professor Tahir Karaşahin ekspert qismində bir il müddətində Azərbaycana ardıcıl səfərlər edərək yerli fermerlər üçün təlim və seminarlar keçirmişlər. Onlar həmçinin qoyunçuluqda süni mayalanmanın Azərbaycanda tətbiqi, süngərləmə üsulu ilə bala alınması, damazlıq və seleksiya işinin təşkili və s. məsələlər ətrafında maarifləndirmə işləri aparmışlar.

İnstitutda quşçuluğun inkişafı istiqamətində də elmi-tədqiqat işləri aparılır. Hazırda bu məqsədlə ətlik-yumurtalıq istiqamətli damazlıq quşların yaradılması, onların baş sayının artırılması və digər istiqamətlərdə işlər davam edir.

İnstitutun fəaliyyətində baramaçılığın inkişaf perspektivləri də diqqət mərkəzindədir. Hazırda laboratoriyada yeni tut ipəkqurdu cins və hibridlərinin yaradılması istiqamətində elmi-tədqiqat işləri görülür. Uzun müddət üzərində seleksiya işi aparılan AZŞ-1 və AZŞ-3 ipəkqurdları artıq cins kimi formalaşmış və özünü təsdiq etmişdir. Bundan başqa, 4 ildə aparılmış elmi-tədqiqat işləri nəticəsində yaradılmış hibridlərin rayonlaşdırılması da nəzərdə tutulmuşdur.

M.Hacıyevin sözlərinə görə, institutda dovşançılığın və arıçılığın inkişafı istiqamətində də elmi işlər aparılır: "Son 3 il ərzində təcrübə təsərrüfatında çarpazlaşdırma tətbiq edilməklə yeni cins dovşanlar alınmış və ətlik-xəzlik dovşan cinsinin yaradılması üçün müəyyən işlər görülmüşdür. İnstitutda həmçinin genofondun qorunması və Bozdağ Qafqaz arı cinsinin cins tərkibinin yaxşılaşdırılması üçün müxtəlif bölgələrə ekspedisiyalar təşkil edilmiş, anatomik quruluşuna görə saf cinsin əksər xüsusiyyətlərini özündə cəmləşdirən "Bozdağ Qafqaz" cinsinə aid 15 ana və 300 erkək arı toplanaraq instituta gətirilmiş və laboratoriyada elmi-tədqiqat işlərinə başlanılmışdır. Süni mayalandırma yolu ilə əldə edilən arılar ailələrə verilmişdir. Hazırda Azərbaycana gətirilən daha məhsuldar "Karnika" arı cinsi yerli Bozdağ Qafqaz erkək arıları ilə mayalandırılmaqla onların inkişaf dinamikasının öyrənilməsinə başlanılmışdır".

Məlum olduğu kimi, heyvandarlıqda yemləmə əsas məsələlərdəndir. Xüsusilə qış aylarında yaşıl yemə olan tələbatın ödənilməsi məqsədilə institutun laboratoriyasında hidraponika sistemi ilə "Yaşıl yem" istehsal prosesi üzərində tədqiqatlar aparılaraq müxtəlif bölgələrdə fəaliyyət göstərən fermerlərə təqdim edilmişdir. Hazırda müxtəlif yemlərdən və alternativ yem əlavələrindən istifadə etməklə mövcud qaramalın süd məhsuldarlığının artırılması və keyfiyyətinin yaxşılaşdırılması istiqamətində elmi tədqiqat işləri davam etdirilir.

Sonda onu qeyd edək ki, institutun mütəxəssisləri tərəfindən son 3 ildə heyvandarlığın bütün sahələrini əhatə etməklə fermerlər üçün 540 təlim keçirilmişdir. Təlimlər 10 mindən çox fermer və sahibkarı əhatə etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

